Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

19
İYUN
2019-cu il

№ 105 (4003)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# RUSİYA SƏFİRİNİN KÖÇƏRYANLA GÖRÜŞÜNÜN MAHİYYƏTİ AÇILIR - «KÖÇƏRYAN-PUTİN GÖRÜŞÜ HAZIRLANIR»

■ səh. 8 ■

Prezident Azərbaycanda "yuxarıdan sosial inqilab" siyasətində yeni mərhələ başlatdı
■ səh. 2 ■

Radikal müxalifət Mehriban Əliyevanın Elçibəy ailəsinə doğru ehtiram jestinə lazımi dəyəri verə bilmədi...
■ səh. 3 ■

Fransa məhkəmələrində məğlub olmuş erməni lobbisi məhkəmə demarşlarının ikinci mərhələsinə başlayır...
■ səh. 5 ■

Tərəfsiz politoloqların son qənaəti - Zaman Azərbaycanın xeyrinə işləyir, vəziyyət Ermənistanın əleyhinə dəyişir
■ səh. 9 ■

Dünya mediası ABŞ-ın İranla müharibə qərarı verdiyini konkret yazdı
■ səh. 11 ■

Paşinyan təcavüzdən imtina etmədən bir neçə iri problemi həll etmək xülyasına düşüb - əhalinin azalması, xarici investisiyaların yoxluğu...
■ səh. 10 ■

Bakıda 4 mindən çox yararsız lift - Prezidentin fevral sərəncamı necə icra olunur...
■ səh. 12 ■

Dilimizin internet bazası bərbad gündədir - istənilən mətni internet-poliqlotun tərcüməsinə verin və baxın...
■ səh. 14 ■



■ səh. 5 ■

## Ermənilərin Vaşinqton görüşünü pozmaq siyasəti intensiv hal alır - əsgərlərimizi öldürdülər, indi də hərbi təlimlərə başlayırlar...





**Dünyada saxta «erməni genosidi»ni tanımış parlament qərarlarının ləğvi perspektivi...**
■ səh. 4 ■

**Konqresmen Frenk Pallonedən ABŞ-ın Azərbaycandakı imicini qaralayan ədalətsiz «Artsax çağırışı»...**
■ səh. 6 ■

**Azərbaycanda çox imkanlı adamların evlərdə şəxsi muzeyləri - qiymətli eksponatların statusu necə qanunilәşdirilə bilər...**
■ səh. 13 ■

■ səh. 3 ■
Ermənistan və dünya erməni lobbisi Fransa məhkəmələrinin qərarından ciddi səbəblərə görə sarsılıb



■ səh. 7 ■
Paşinyan səfirin Köçəryanla təkbətək görüşünü Rusiya əleyhinə yeni prosesə çevirir...



■ səh. 4 ■
Ankara-Bakı qardaşlaşması Türkiyə-Azərbaycan qardaşlığına nələri əlavə edə biləcək...



■ səh. 15 ■
Banklar kredit faizlərini salmamaq üçün tutarsız arqument tapıblar - əmanət faizləri...



■ səh. 15 ■
Vergilər Nazirliyi "Binə" və "Sədərək" bazarlarında vergidən külli miqdarda yayınmaları aktuallaşdırdı



# Prezident Azərbaycanda "yuxarıdan sosial inqilab" siyasətində yeni mərhələ başlatdı

## Minimum əməkhaqqı və maaşlar yenidən qaldırıldı

**Prezident İlham Əliyev minimum aylıq əməkhaqqının artırılması haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, minimum aylıq əməkhaqqının məbləği 250 manat müəyyən edilsin.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının, o cümlədən, Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bu sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bir ay müddətində bu sərəncamın 1-ci hissəsinə uyğunlaşdırsın; bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Sərəncamın 1-ci hissəsi 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

Qeyd edək ki, bundan əvvəl minimum aylıq əməkhaqqının məbləği 180 manat təşkil edib.

Prezident İlham Əliyev dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında da sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 40 faiz artırılsın

Prezident İlham Əliyevin dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında sərəncamı ilə onların aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılıb.



Prezident İlham Əliyevin digər sərəncamları ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və mülki işçilərinin, Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının, Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Tibb Baş İdarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının, Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşları orta hesabla 40 faiz həcmində artırılıb.

# Müdafiə naziri Zakir Həsənov Azərbaycan Ordusunun imkanları barədə konkret məsələlər açıqladı



**İyunun 18-də Müdafiə naziri Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni inşa olunan təlim mərkəzinin açılışında iştirak edib.**

"Trend"-in məlumatına görə, mərkəz haqqında məruzə edilərək bildirilib ki, burada təlimlərə cəlb olunacaq şəxsi heyətin yerləşdirilməsi və fəaliyyəti üçün lazımi infrastruktur yaradılıb.

Real döyüş şəraitinə uyğun inşa edilən təlim mərkəzində atış çalışmaları, müxtəlif döyüş və xüsusi texnikanın mürəkkəb relyef və hava şəraitində idarə olunması üzrə praktiki vərdişlərin təkmilləşdirilməsi məqsədilə məşğələlər, döyüş tapşırıqlarının tədrisi nəzərdə tutulub.

Müdafiə naziri poliqonun ərazisindəki hərbi infrastruktur obyektlərinə baş çəkib, müxtəlif bölmələrlə keçirilən səhra məşğələlərini izləyib.

Sonda general-polkovnik Z.Həsənov mətbuat nümayəndələri ilə görüşüb və onların maraqlandıran sualları cavablandırıb.

2016-cı ilin aprel ayında Azərbaycan Ordusunun kiçik bir hissəsi Ermənistan ordusunu darmadağın etdi. Müdafiə naziri Zakir Həsənov iyunun 18-də keçirilən mətbuat konfransında belə deyib.

Z.Həsənov bildirib ki, ermənilər əlacsız vəziyyətdə qalaraq hətta qocaları səfərbər edib cəbhəyə göndərdilər, ancaq onlar da gəlib çıxa bilmədilər.

Nazir qeyd edib ki, Azərbaycan Ordusunda həyata keçirilən islahatlar uğurla davam edir: "Bütün əsas istiqamətlərdə ordu inkişaf edir. Bunu beynəlxalq qurumlar da təsdiq edir. İslahatların əsas istiqaməti ordunu yeni müasir silah-texnika ilə təmin etmək, döyüş qabiliyyətini yüksəltmək, infrastrukturu inkişaf etdirmək və s-dir. Biz tez-tez irimiqyaslı təlimlər keçiririk. Müasir təlim mərkəzlərimiz var. Bizim təlimlərimiz müasir, döyüş vəziyyətinə maksimal yaxın vəziyyətdə keçirilir. Getdikcə təlimlərə daha böyük hissə və birləşmələri cəlb edirik". Z.Həsənovun sözlərinə görə, ordunun döyüş qabiliyyətinin, təcrübəsinin artırılmasında Türkiyə Silahlı qüvvələrinin rolu böyükdür: "Biz Türkiyə ordusunun təcrübəsindən istifadə edirik. Biz Türkiyə Silahlı qüvvələri ilə birgə təlimlər keçirilib. Əgər 2018-ci ildə biz birgə 8 təlim keçirmişdiksə, bu il təlimlərin sayı 13-ə çatdırılacaq".

Nazir əlavə edib ki, cənab Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən sosial baxımdan orduya böyük diqqət ayrılır: "Bizim ordunun zabitlərinin əksəriyyəti daim ön xətdədir. Onların ailələri uzaq kəndlərdə kirayədə qalırlar. Biz Prezidentə müraciət etdik və dövlət başçısı buna reaksiya verdi və zabitlər üçün verilən kirayə pulları artırıldı. Bu qərar orduda yüksək qiymətləndirildi".

Z.Həsənov vurğulayıb ki, Müdafiə nazirinin əsas vəzifəsi ordunu daim yüksək döyüş vəziyyətində və müharibəyə hazır saxlamaqdır: "Bizim də vəzifəmiz Ali Baş Komandanın tapşırığına əsasən, qanun çərçivəsində ordunu daim yüksək döyüş vəziyyətində saxlamaqdır".

Müdafiə naziri Zakir Həsənov həmçinin deyib ki, bu gün Azərbaycanın Ordusunda olan hərbi təyyarələr qarşıda duran vəzifələri tam yerinə yetirməyə hazırdır.

Nazir qeyd edib ki, Azərbaycan Ordusunun helikopter parkı da tam yenilənib: "Bizim istifadəmizdə ən müasir helikopterlər var. Onlar uzaq məsafədən hədəfi dəqiqliklə vurmağa qadirdir".

Hərbi dəniz donanması ilə bağlı sualı cavablandıran nazir bildirib ki, donanmanın təkmilləşdirilməsi ilə bağlı işlər aparılır: "Biz dənizdə elə bir təhlükə görmürük. Xəzərin statusu ilə bağlı məsələ də həll olunub. Xəzəryani dövlətlər bizə dost ölkələrdir. Ancaq hərbi dəniz donanmasının da təkmilləşdirilməsi istiqamətində işlər aparılır".

Müdafiə naziri Zakir Həsənov Ermənistanın müdafiə naziri David Tonoyanın Azərbaycan Ordusunun əsgəri Elşən Xəlilovun vurulması ilə bağlı şəxsən əmr verməsi ilə bağlı bəyanatında münasibət bildirib. Z.Həsənov bildirib ki, bu bəyanat ucuz siyasi xal toplamaq üçündür: "Onların orduları çox zəifdir və çalışırlar ki, bu cür yollarla ucuz siyasi xal toplasınlar. Mən onun səviyyəsinə düşmək istəmirəm, o yalan danışır, özünü nümayiş etdirir".

Nazir qeyd edib ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etməyə çalışır: "Ancaq bu, olmasa, biz digər yola əl atacağıq. Biz 2016-cı ildə 3 gün ərzində bunu sübut etdik, indi də deyirik ki, gedin məsələni həll edin, əks təqdirdə torpaqlarımızı digər yolla azad edəcəyik".

Nazir daha sonra - deyib ki, 2016-cı ildə 3 gün ərzində Azərbaycan Ordusunun kiçik bir hissəsi bütün Ermənistan ordusunu darmadağın etdi. Nazir bildirib ki, Azərbaycan Ordusu bu qələbəni hər dəqiqə nümayiş etdirməyə hazırdır: "Müharibəni hərbiçilər başlamır, icra edir. Hələki beynəlxalq vəziyyət müharibəyə imkan vermir, cənab Prezident münaqişənin həlli ilə bağlı işlər aparır".

Z.Həsənov vurğulayıb ki, Azərbaycan Ordusu gecə-gündüz döyüş hazırlığı ilə məşğul olur: "Azərbaycan Ordusu daim inkişaf edir, döyüş qabiliyyəti, psixoloji hazırlığı daim yüksəldir. Ermənistan isə bu sahədə çox zəifdir. Aprel döyüşlərindən sonra Sarkisyan dedi ki, "biz 80-ci illərin silahı ilə döyüşürdük". Bəs necə oldu, siz deyirdiniz "bizim güclü ordumuz var?"

*Baki-xeber.com*

## Konvensiya üzrə öhdəliklər yerinə yetirilir - "Rüzgar" Ekoloji İctimai Birliyinin maarifçi tədbirləri...

**Son əsrin bəşəriyyət qarşısına çıxardığı ən mühüm problemlərdən biri də sənayenin inkişafı ilə bağlı yeni kimyəvi maddələrin istehsalı, daşınması, insan fəaliyyətində tətbiqi, habelə tullantılarının lazımi səviyyədə idarə olunmaması zamanı ətraf mühitə toksik çirkləndiricilərin atılması ilə müşayiət olunan problemlərdir.**



Bu fəaliyyətlərin bir çoxu müasir cəmiyyətin rifahı üçün zəruridir, lakin bununla bərabər onlar ətraf mühitə və insan sağlamlığına ciddi təhlükə yaradırlar.

Belə kimyəvi maddələr arasında "Davamlı üzvi çirkləndiricilər" adlanan və sənayenin bir çox sahələrində tətbiq olunan polixlorbifenillərdir (PXB). PXB adlanan bu kimyəvi birləşmələrin ilk dəfə sintezi 1920-ci illərin sonunda həyata keçirilməyə başlandı. Hazırda yağların, mazların, hidravlik mayelərin, adgezinlərin və tipoqrafiya boyalarının komponentləri kimi sənayedə, xüsusilə elektrotexnikada istifadə olunur.

Davamlı üzvi çirkləndiricilərin ölkəmiz üçün təhlükə mənbəyi olduğunu və bu təhlükənin qarşısının alınmasının vacibliyini nəzərə alaraq "Davamlı Üzvi Çirkləndiricilər haqqında" Stokholm Konvensiyası Azərbaycan Respublikası tərəfindən 09 dekabr 2003-cü il tarixində ratifikasiya edilib.

Azərbaycanda PXB, PXB-li birləşmələr və PXB-li avadanlıqlar istehsal olunmayıb. Azərbaycan ərazisində mövcud ola bilən PXB birləşmələri və avdanlıqlar yalnız idxal nəticəsində meydana gəlib. PXB tərkibli birləşmələr və avadanlıqlar üzrə statistik məlumatlar yoxdur. Bu məlumatların ilkin versiyası Azərbaycanda Stokholm Konvensiyası üzrə 1-ci Milli Fəaliyyət Planının tərtibi prosesində aparılan inventarlaşma nəticəsində toplanıb.

"Davamlı Üzvi Çirkləndiricilər" haqqında Stokholm Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün bütün maraqlı tərəflər səfərbər olub. 2007-ci ildə Konvensiya üzrə 2020-ci ilə qədər dövrü əhatə edən 1-ci Milli Fəaliyyət Planı hazırlanıb. Hazırda 2030-cu ilə qədər görüləcək işləri əhatə edən 2-ci Milli Fəaliyyət Planı hazırlanmaqdadır.

"Rüzgar" Ekoloji İctimai Birliyi ictimaiyyətin geniş kütlələrinin məlumatlandırılması və maarifləndirilməsi üçün təbliğat vasitələri hazırlayıb. "Polixlorbifenillər və ətraf mühit" adlı kitabça bu vasitələr arasında xüsusi yer tutur.

**Məlum olduğu kimi, Azərbaycanın sabiq prezidenti Əbülfəz Elçibəyin həyat yoldaşı Həlimə Əliyeva iyunun 14-də Türkiyənin İstanbul şəhərində vəfat edib. Mərhumun cənazəsi doğma Kələki kəndinə (Naxçıvan Muxtar Respublikası, Ordubad rayonu) aparılıb və orada dəfn edilib.**



# Radikal müxalifət Mehriban Əliyevanın Elçibəy ailəsinə doğru ehtiram jestinə lazımi dəyəri verə bilmədi...

***Xəzər Teyyublu:** "Elə məsələlər var ki, biz müxalif və ya hakimiyyət mövqeyimizi kənara qoyub vahid platformadan çıxış etməliyik"*

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın adından mərhum Həlimə Əliyevanın ailəsinə başsağlığı verilib və yas mərasimi ilə bağlı xərcləri Heydər Əliyev Fondu öz üzərinə götürüb. Mərhumun nəşini və yasda iştirak etmək istəyənləri Naxçıvana aparmaq üçün ölkə rəhbərliyi tərəfindən xüsusi təyyarə də ayrılıb.

Azərbaycanın sabiq prezidenti Əbülfəz Elçibəyin kürəkəni Aqil Səmədbəyli qayınanası Həlimə Əliyevanın müalicə dövründə və yas mərasimində əməyi keçən hər kəsə təşəkkür edib. A.Səmədbəyli bu barədə "Facebook" səhifəsində yazıb. O, cənazə xərclərini öz üzərinə götürdüyünə və çələng göndərdiyinə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirib. Elçibəyin həyat yoldaşına dövlət tərəfindən göstərilən bu diqqət və sayğı həm də müxalifətə yönəlik bir sayğı jesti də sayıla bilər. Çünki Elçibəy həm də hazırkı hakimiyyətə qarşı müxalif mövqedə olan siyasi cəmənin lideri sayılıb. Hazırda onun ideologiyası və yoluna aid olduqlarını iddia edən çoxlu sayda siyasi qurum fəaliyyət göstərir. Ancaq maraqlıdır ki, Mehriban Əliyevanın etdiyi bu jestə partiyalar adından təşəkkür ifadə olunmadı. Radikal dairələrin bu davranışı necə qəbul oluna bilər?

**Elçibəyin sədri olduğu partiyadan ayrılaraq müstəqil qurum kimi fəaliyyət göstərən Klassik Xalq Cəbhəsi Partiyasının funksioneri Xəzər Teyyublu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələ sırf siyasi xarakter daşımadığı üçün belə mənzərə yarana bilər:** "Yəni mənəvi məsələ olduğu üçün partiya səviyyəsində buna münasibət bildirilməyib. Ancaq hörmətli Aqil bəy Elçibəy ailəsi adından birinci xanıma öz minnətdarlığını bildirib. Əbülfəz bəyin xanımı uzun müddətdir Türkiyədə yaşayırdı. Orada müalicə alırdı. Vəfatından sonra ölkənin Birinci vitse-prezidenti tərəfindən ona və ailəsinə böyük diqqət göstərildi. Bu olduqca humanist və alqışalayiq addımdır. Ölkənin birinci xanımının eks birinci xanıma göstərdiyi bu ehtiram, eyni zamanda, dövlətin həssas məsələyə olan diqqəti anlamına gəlir. Bu, Elçibəyə və onun yolunu gedənlərə böyük bir diqqətin olduğunun nümunəsidir. Hər halda bu cür addımların atılmasında və onlara münasibətdə siyasi mənsubiyyət nəzərə alınmamalıdır. Yəni hətta radikal mövqeli partiyalar belə bu cür jestləri təqdir etməlidirlər. Dövlətin yaranmasında xidməti olmuş insanların ailəsi belə diqqətə layiq olub. Belə addımlar bizə çox lazım olan milli birliyi möhkəmlədir. Elə məsələlər var ki, biz müxalif və ya hakimiyyət mövqeyimizi kənara qoyub vahid platformadan çıxış etməliyik. Çünki biz müharibə şəraitində yaşayırıq, ərazilərimiz işğala məruz qalıb. Bizi bu cür bəladan yalnız milli birlik xilas edə bilər. Ona aparan yol isə analoji mənəvi addımların atılmasından keçir. Mən inanmıram ki, hansısa partiya həmin dəstəyə etiraz etsin".

***Məhəmmədəli QƏRİBLİ***

**Bu günlərdə Fransa məhkəmələrinin ard-arda düz 5 dəfə qərar qəbul edərək separatçı Qarabağ şəhərlərinin bəzi fransız şəhərləri ilə "dostluq xartiyaları" deyilən mənasız sənədləri ləğv etməsi Ermənistanda və erməni lobbisi arasında çox böyük narahatlıq doğurub. Bunu xaricdəki erməni diaspor fəallarının və Ermənistandakı media davranışlarından aydın görmək mümkündür.**

# Ermənistan və dünya erməni lobbisi Fransa məhkəmələrinin qərarından ciddi səbəblərə görə sarsılıb

***Aydın Quliyev:** "Fransa məhkəmələrindən sonra Ermənistanın narahatlıqlarını artıran həm də odur ki, bəzi ölkələrin parlamentlərinin saxta "erməni genosidi"ni tanıyan qərarları da bir-bir ləğv olunmağa başlayacaq"*



Bunun çox dərin səbəblərə malik olduğunu deyən "Bakı-Xəbər"in baş redaktoru, siyasi ekspert Aydın Quliyev bu prosesin həm dönməz olduğunu, həm də ermənilərin Azərbaycan əleyhinə bəzi beynəlxalq qurumların əli ilə yeni qaralama kampaniyalarına hazırlaşdığını düşünür.

"Erməni lobbisinin ənənəvi olaraq güclü sayıldığı Fransada ermənilərin belə ağır zərbə alması sözsüz ki, onların mövqeyinin əsaslı dərəcədə zəiflədiyindən xəbər verir. İllərdir ki, Ermənistan Azərbaycan əleyhinə dünya miqyasında iki istiqamətdə aparılan işə böyük vəsaitlər və resurslar sərf edir. Biri saxta genosidin mümkün qədər çox sayda ölkə parlamentləri tərəfindən tanınma qərarlarına nail olmaqdır, digəri isə qondarma "DQR" rejimini tanıtmaq üçün separatçı şəhərlərin dünya şəhərləri ilə "qardaşlaşmasına" və "dostlaşmasına" nail olmaqdır.

Etiraf edək ki, hər iki istiqamətdə onların müəyyən nəticələri də var və ermənilər daha böyük nəticələrə çatmaq üçün səylərini ciddi şəkildə davam etdirirlər. Hər iki istiqamətdə ermənilərin gələcəyə böyük ümidləri olsa da, Azərbaycanın son 15 ildə həyata keçirdiyi əks həmlələr onların şaqqını əhəmiyyətli dərəcədə qırdı. Əvvəla Azərbaycan onların saxta genosidi tanıtmaq səylərinə qarşı real Xocalı soyqırımını tanıtmaq kursu ortaya qoydu və 20-dən çox ölkə parlamentinin Xocalını genosid hadisəsi kimi tanımasına nail oldu. Bu gün Azərbaycanın Xocalını tanıtmaq üzrə fəaliyyətləri öz məzmununa, nəticələrinə və tempinə görə ermənilərin saxta genosid üzərində qurduqları işi dəfələrlə üstələyir. Bu məqam sözsüz ki, erməniləri narahat edir. Narahatlıq Fransa məhkəmələrinin Qarabağ şəhərləri ilə saxta dostlaşma qərarlarını ləğv etməsindən sonra ikiqat artıb. İş o yerə çatıb ki, hətta Fransa mediasındakı erməni lobbiçiləri açıq həyəcan təbili çalmağa başlayıblar. Məşhur "Le Mond" qəzetinin redaktoru Minayanın hər şeydən açıq danışan məqaləsi yəqin ki, sonuncu olmayacaq.

Fransa məhkəmələrinin beş qərarı sübut etdi ki, Azərbaycan Qarabağ məsələsində diplomatik üstünlüyünü erməniçiliyin son qalası sayılan Fransada da aşkar göstərməyə başlayıb. Ermənistanda zəncir kimi bir-birinə bağlı və məntiqi ardıcıllığa söykənən təlaş var. Bir vaxtlar bəzi ölkə parlamentlərinin saxta "erməni genosidi"ni tanıma qərarları var idisə, indi ondan da güclü dalğa ilə əsl Xocalı genosidinin tanınma qərarları qəbul olunmağa başlayıb. Erməni ideoloqları tam real olaraq proqnoz edirlər ki, Fransa məhkəmələrinin ardınca saxta "erməni genosidi"ni bu vaxtacan tanımış dünyanın bəzi parlamentləri də bu qərarlarından imtina edəcəklər. Bu perspektiv tam realdır. Çünki bir vaxtlar Fransa məhkəmələrinin belə qərarlar çıxara biləcəyini real sayanlar da çox az idi. Bu gün Azərbaycan diplomatiyasının malik olduğu bir sıra əsas resurs və nailiyyətlər dünya parlamentlərinin saxta "erməni genosidi"ndən imtinasını mümkün edir. Belə ki, Qarabağ probleminin mahiyyətini dünya tam bilir, Azərbaycan regionun və dünyanın əhəmiyyətli və təsirli aktoruna çevrilib, Fransa məhkəmələrinin məlum qərarları kimi mühüm hədəfə yetişib, dünyanın enerji, nəqliyyat və logistika xəritəsini dəyişən mövqeyə hakim olub. Əldə edilmiş diplomatik uğurlar deməyə əsas verir ki, saxta "erməni genosidi"ni tanımış parlamentlərin bu yanlış mövqedən imtinası getdikcə mümkün olmağa başlayır. Fransa məhkəmələrinin məlum qərarından sonra Ermənistanın təlaşını ikiqat artıran bu perspektivdir.

**İstisna deyil ki, yaxın günlərdə ermənilər bəzi Avropa təşkilatlarının dəhlizlərində Azərbaycan əleyhinə yeni korrupsiya hesabatları, "ikra diplomatiyası" və siyasi məhbus uydurmaları kimi diqqəti əsas məsələdən yayındırmaq məqsədi güdən həmlələrə baş vursunlar" - A.Quliyev deyib.**

# Dünyada saxta "erməni genosidi"ni tanımış parlament qərarlarının ləğvi perspektivi...

**Fransa məhkəmələrinin Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində yaradılan qondarma "DQR"lə bağlı qərarlarının işğalçı ölkədə yaratdığı çaxnaşma davam edir. Məlum olduğu kimi, əvvəlcə Serji-Pontuaz məhkəməsinin qərarı ilə Arnuvil şəhərinin qondarma Dağlıq Qarabağdakı Şeher inzibati bölgəsi ilə "Dostluq haqqında xartiya"sı ləğv edildi.**



## Elçin Mirzəbəyli: "Bir sıra ölkələrin parlamentləri qondarma "erməni soyqırımı" məsələsinə yenidən baxıb onu ləğv edə bilər"

Eyni qərarla Arnuvil şəhəri ilə Azərbaycanın işğal altında olan Xocavənd rayonu arasında imzalanmış "Dostluq xartiyası" ləğv edildi. Daha sonra Qrenobl məhkəməsi eyni xarakterli 4 "Dostluq xartiyası"nı ləğv etdi. Ermənistan üçün ağır zərbə olan bu qərarlardan sonra İrəvanda ciddi siyasi narahatlıqlar yaşanır.

Erməni tərəfi heç cür Fransa məhkəmələrinin belə bir qərar verməsini həzm edə bilmir. Ölkə parlamentində müzakirələr zamanı Ermənistan hakimiyyəti, xüsusilə Xarici İşlər Nazirliyi ittiham olunub, Azərbaycan diplomatiyası qarşısında məğlubiyyətə uğradıqlarını etiraf ediblər.

O da məlumdur ki, başda Ermənistan olmaqla, xaricdəki erməni lobbisi qondarma "erməni genosidi" ilə bağlı bir sıra işlər görüb. Bəzi ölkə parlamentləri, bir sıra ABŞ ştatları saxta "genosidi" tanımaqla bağlı qərarlar qəbul ediblər. Erməni tərəfi bütün vasitələrlə çalışır ki, qondarma "soyqırımı" daha çox ölkə tanısın. Bu istiqamətdə bütün resurslarını işə salmağa çalışır. Fransa məhkəmələrinin məlum ədalətli qərarından sonra bir vaxtlar bəzi ölkə parlamentlərinin saxta "erməni genosidi" qərarlarının ləğvi məsələsi gündəmə gələ bilər. Yəni həmin ölkə parlamentləri yenidən buna baxıb qondarma "soyqırımı" tanımaqdan imtina etsinlər. Daha dəqiq desək, Fransa məhkəmələrinin ardınca saxta "erməni genosidi"ni bu vaxtacan tanımış dünyanın bəzi parlamentləri də bu qərarlarından imtina etsinlər.

Azərbaycanın dünyada artan siyasi-diplomatik gücü fonunda, ekspertlər sözügedən məsələnin perspektivini necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, prinsipcə, bir sıra ölkələrin parlamentləri**

*"Biz çalışmalıyıq ki, bəzi ölkə parlamentləri məsələyə yenidən baxsın və erməni yalanlarına yox desinlər"*

**qondarma "erməni soyqırımı" məsələsinə yenidən baxıb onu ləğv edə bilər:** "Baxmayaraq ki, bəzi ölkə parlamentlərində bununla bağlı qəbul edilən qərarlar siyasi motivli qərarlardır. Məhkəmələrin qəbul etdiyi qərarlar isə hüquqi qərarlardır. Məhkəmələrin qərarları hüquqi xarakter daşıdığı üçün, ayrı-ayrı işlərin baxılması prosesində həm də presedent olur. O baxımdan biz çox arzulayırıq ki, qondarma "erməni soyqırımı" ilə bağlı ayrı-ayrı ölkələrin parlamentləri öz qərarlarına yenidən baxsınlar. Baxmayaraq ki, parlamentlərin bununla bağlı qərarları siyasi xarakterlidir. Sözügedən siyasi qərarların heç bir hüquqi motivi olmadığı üçün, həmin qərarlar bu və ya digər formada Türkiyəyə qarşı hər hansı bir sanksiyanın qəbulu üçün əsas ola bilməz. Çünki, qeyd etdiyim kimi, sözügedən qərarlar hüquqi gücə malik deyil. Buna baxmayaraq, bəzi parlamentlər tərəfindən qondarma "erməni soyqırımı"nın tanınması qəbul edilən deyil.

Ona görə ki, bəzi dairələr bundan Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışırlar. Ermənilər bu amildən istifadə edib Qarabağın işğalına haqq qazandırmağa çalışırlar. Ona görə də Azərbaycanla Türkiyə bu yöndə səylərini birləşdirib bu məsələ ilə bağlı birgə işlər görməyə çalışmalıdırlar. Biz çalışmalıyıq ki, bəzi ölkə parlamentləri məsələyə yenidən baxsın və erməni yalanlarına yox desinlər. Yəni qondarma "erməni soyqırımı"nı tanımaqdan imtina etsinlər".

***Vidadi ORDAHALLI***

# Ankara-Bakı qardaşlaşması Türkiyə-Azərbaycan qardaşlığına nələri əlavə edə biləcək...

**Azərbaycan və Türkiyə arasında tarixən sarsılmaz qardaşlıq bağları mövcud olub. Bu gün o bağların, əlaqələrin daha da möhkəmlənməsi istiqamətində müxtəlif formalarda qarşılıqlı işlər həyata keçirilir. "Bir millət, iki dövlət" olan Azərbaycan və Türkiyə qardaşlığının əbədi olması heç kəsdə kiçik də olsa şübhə doğurmur.**



*"Ankara və Bakı qardaşlığının simvolu olan abidələrimizlə bağlı bir muzeyin yaradılması da yerinə düşərdi"*

## Faiq Ələkbərli: "Hər iki dövlətin paytaxtlarının qardaşlaşması istiqamətində atılacaq addımlar müsbət haldır"

Bu gün Ankara və Bakının qardaşlaşmış şəhərlər olması gündəmdədir. Ankaranın meri Mənsur Yavaş Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahimlə görüşündə bildirib ki, iki paytaxt şəhər arasında qardaşlaşma barədə sazişin məhz onun rəhbərliyi dövründə imzalanacağı qürurvericidir.

M.Yavaş, həmçinin, qeyd edib ki, Türkiyə hər zaman Azərbaycanın uğurları ilə fəxr edir: "Qardaş Azərbaycanın bayrağını harada görsəm, ürəkdən sevinirəm".

Ankara və Bakının qardaşlaşmış şəhər olması Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına əlavə olaraq nə kimi faydalar verəcək?

Ekspertlər qeyd edirlər ki, tarixən Azərbaycanın paytaxtı Bakı və Türkiyənin paytaxtı Ankara arasında müxtəlif istiqamətlərdə sıx əməkdaşlıq, qarşılıqlı isti əlaqələr mövcuddur, hər iki şəhərin qardaşlaşmasına dair sənədin imzalanması bu əlaqələrin daha yüksək fonunda inkişafına şərait yaradacaq.

**Tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi-alim Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, Bakı və Ankaranın rəsmən qardaşlaşmış şəhər olması olduqca əhəmiyyətlidir.** O hesab edir ki, Bakı və Ankara qardaşlığının rəmzi olan bir muzeyin yaradılması da yaxşı olardı: "Əlbəttə, bu, iki dövlətin və iki paytaxt şəhərin daha da yaxınlaşması baxımından böyük əhəmiyyətə malikdir. Hər iki dövlətin paytaxtlarının qardaşlaşması istiqamətində atılacaq addımlar müsbət haldır.

*"... hər iki dövlətin gələcəkdə atacağı bütün addımlara müsbət təsir göstərəcək"*

Həm Bakı, həm də Ankara hər iki dövlətin mədəni, iqtisadi, hərbi, elmi, digər sahələrdə yaxınlaşmasında mühüm rol oynayıb. Bakı və Ankara arasındakı münasibətlərin belə bir formada da davam etdirilməsi hər iki dövlətin gələcəkdə atacağı bütün addımlara müsbət təsir göstərəcək. Bilirsiniz ki, Azərbaycan türklərinin Ankarada saysız dəyərləri var. Bu dəyərlər muzeylərdə, müxtəlif kitabxanalarda yüksək səviyyədə qorunur və təbliğ edilir. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olan Məhəmməd Əmin Rəsulzadənin məzarı da Ankarada yerləşir. Bizim şəhərdə də türk əsgərlərinin məzarları var, onların xatirə kompleksi mövcuddur. Fikrimcə, Ankara və Bakı qardaşlığı nəticəsində abidələrimizlə bağlı bir muzeyin yaradılması da yerinə düşərdi. Bakı və Ankaranın birgə qardaşlıq muzeyinin yaradılması olduqca vacibdir. Çünki qardaşlığımızın rəmzi olan bir sıra abidələr mövcuddur".

**Ankara və Bakı arasında qardaşlıq tellərinin daha da möhkəmlənməsinin belə həssas dönəmdə böyük əhəmiyyətə malik olduğunu qeyd edən F.Ələkbərlinin sözlərinə görə, bu gün erməni məsələsinin meydana çıxması bunu zəruri edir. "Bu qardaşlaşma iki dövlətin bir-birilə daha da yaxınlaşmasına şərait yaratmaqla yanaşı, həm də ortada olan bəzi söz-söhbətlərin aradan qaldırılmasına səbəb olacaq" - deyə F.Ələkbərli bildirdi.**

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, Azərbaycan və Ermənistanın xarici işlər nazirləri iyunun 20-də Vaşinqtonda görüşəcəklər. Ancaq görünən odur ki, erməni tərəfi sözügedən görüşü pozmaq üçün təxribatlara ara vermir.**

# Ermənilərin Vaşinqton görüşünü pozmaq siyasəti intensiv hal alır - əsgərlərimizi öldürdülər, indi də hərbi təlimlərə başlayırlar...




## *Mübariz Əhmədoğlu: "Danışıqlar prosesində hazırda gündəlikdə nəzərdə tutulan məsələlər ermənilərin xeyrinə deyil"*

Belə ki, iyunun 9-da cəbhənin Tərtər rayonu istiqamətində düşmən tərəfindən açılan atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Elşən Xəlilov şəhid edildi. Adətən düşmən tərəf təmas xəttində baş verənlərə görə məsuliyyəti qondarma rejimin üzərinə atırdısa, bu dəfə fərqli taktika seçildi. Belə ki, Ermənistanın müdafiə naziri David Tonoyan 19 yaşlı azərbaycanlı hərbçini qətlə yetirən hərbi qulluqçulara hərbi mükafatlar təqdim edib. Eyni zamanda, əsgərimizin məhz onun əmrilə vurulduğunu açıqlayıb.

Bundan başqa, bu günlərdə ermənilər hətta bizim hərbi təyyarəmizi belə vurmağa çalışdılar.

Bu azmış kimi, Ermənistan ordusu işğal etdiyi Azərbaycan torpaqlarında 10 min nəfər hərbçinin iştirakı ilə genişmiqyaslı hərbi təlimlərə start verib. Azərbaycan Xarici İşlər Nazirliyi də haqlı olaraq bu təlimlərə münasibət bildirib. Məlum olub ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin təklifi əsasında iki ölkənin xarici işlər nazirlərinin Vaşinqtonda keçiriləcək görüşü ərəfəsində Ermənistan tərəfinin bu addımları anlaşılmazdır.

Görünən odur ki, Ermənistan tərəfi qarşıdakı Vaşinqton görüşünü pozmaq üçün bütün vasitələrə əl atır. Maraqlıdır, işğalçı tərəf gözlənilən Vaşinqton görüşünü pozmağa niyə bu qədər maraqlıdır?

**Sözügedən məsələyə aydınlıq gətirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, danışıqlarla bağlı hazırkı vəziyyətdə ermənilər diplomatik və siyasi prosesləri tam uduzublar:** "Danışıqlar prosesində hazırda gündəlikdə nəzərdə tutulan məsələlər ermənilərin ziyanınadır, onların xeyrinə deyil. Ona görə də müxtəlif təxribatlarla Vaşinqton danışıqlarını pozmaq istəyirlər. Məsələ ondadır ki, əldə olunan razılıqlardan biri atəşkəs rejimi barədə ikitərəfli müqavilənin imzalanması ilə bağlı olmalıdır. Yəni Azərbaycanla Ermənistan arasında. Bu vaxta qədər erməni tərəfi iddia edirdi ki, guya danışıqlar üçtərəfli gedir və bununla bağlı 1994-cü il müqaviləsi var. Vaşinqtonda 1994-cü il müqaviləsinin yenilənməsi, daha doğrusu, dəqiqləşdirilməsi məsələsi gündəlikdədir. Bu da ikitərəfli olmalıdır. Qeyd etdiyim kimi, Azərbaycanla Ermənistan arasında olmalıdır. Danışıqlarda Dağlıq Qarabağ tərəfi adı olmamalıdır. Məsələ ondadır ki, hazırda Ermənistan tərəfi siyasi-diplomatik baxımdan sözügedən vəziyyəti öz xeyrinə dəyişə bilmir. Ona görə də hərbi aktivliyi artırmaqla danışıqlar prosesini yubatmağa çalışırlar. Çalışırlar ki, danışıqlarla bağlı sözügedən sənəd imzalanmasın. O üzdən, hərbçimizi şəhid etdilər və çəkinmədən bunu bəyan etdilər. Eləcə də işğal olunmuş Azərbaycan ərazilərində genişmiqyaslı hərbi təlimlərə start verilməsi bunun tərkib hissəsidir. Hesab edirəm ki, Vaşinqton görüşü bu baxımdan müəyyən mənada həlledici olacaq. Sözügedən görüşdə məlum məsələlərlə bağlı razılıq əldə olunmasa, bu o deməkdir ki, Azərbaycan dərhal əlavə hərbi aktivlik nümayiş etdirmək məcburiyyətində qalacaq".

*"Ona görə də müxtəlif təxribatlarla Vaşinqton danışıqlarını pozmaq istəyirlər"*

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, Fransa məhkəmələrində Qarabağdakı separatçı rejimlə bu ölkənin şəhərləri arasında imzalanmış "dostluq xartiyaları"nın ləğv edilməsi prosesinə start verilib. Fransanın Serji-Pontuaz məhkəməsinin Arnuvilin qondarma Dağlıq Qarabağdakı Şeher inzibati bölgəsi ilə "Dostluq haqqında xartiya"sını ləğv etməsinin ardınca Qrenobl inzibati məhkəməsi tərəfindən də bənzər qərar qəbul olunub.**

# Fransa məhkəmələrində məğlub olmuş erməni lobbisi məhkəmə demarşlarının ikinci mərhələsinə başlayır...



## *Samir Adıgözəlli: "Niyə bizim müxalifət və ya xaricdə yaşayan müxalif mövqeli şəxslər bu məsələ ilə bağlı mövqe ortaya qoymur?"*

Qondarma separatçı erməni rejimi ilə bağlanmış "dostluq müqavilələri" hüquqi cəhətdən ləğv olunsa da, bəzi Fransa məmurları bunu qulaqardına vurmaqda davam edirlər. Erməni KİV-inin verdiyi məlumata görə, həmin şəhərlərin bəzilərinin merləri məlum qərara sayğı ilə yanaşmayacaqlarını deyirlər.

Valans şəhərinin meri, Rona-Alpı regionunun vitse-prezidenti Nikolas Daraqo bəyan edib ki, Qrenobl məhkəməsinin Xankəndi ilə "dostluq xartiyası"nı ləğv etməsinə rəğmən biz "Artsax xalqı" ilə dostluq münasibətlərimizi davam etdirəcək və bu "ölkə"nin öz "müstəqilliyini" qoruma səylərini dəstəkləyəcəyik. Fransız mer məhkəmənin bu qərarından təəssüfləndiyini bildirib.

Şuşa ilə "qardaşlaşan" şəhərlərdən birinin meri Marlen Mur isə bildirib ki, həmin qərardan yuxarı instansiyalara şikayət etmək niyyəti var.

Göründüyü kimi, Fransa məhkəmələrindən fərqli olaraq, həmin ölkənin məmur kontingentində erməni sevgisi açıq özünü büruzə verir. Onlar sona qədər bu mübarizəni aparacaqlarına dair söz verirlər. Bunun qarşısını almaq üçün Azərbaycan hansı hüquqi mexanizmlərdən və diasporumuzun dəstəyindən necə istifadə etməlidir?

**Aktiv diaspor fəaliyyəti ilə məşğul olan İctimai-Siyasi Proseslər və Beynəlxalq Əlaqələr Mərkəzinin sədri (İSBAM) Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, bu məsələdə təbliğata güclü önəm verilməlidir:** "Bu, Azərbaycan üçün böyük qələbədir. Sadəcə, dinamikanı saxlamaq lazımdır. Ermənilərin sakitləşmək istəməməsinin səbəbi aydındır. Çünki onlar olduqca güvəndikləri və diasporlarının güclü təşkilatlandığı bir ölkədə acı məğlubiyyətə düçar olublar. Bilirlər ki, bu, Fransanın digər şəhərləri və dünyanın başqa ölkələri üçün də presedent rolunu oynaya bilər. Biz bilirdik ki, Fransadakı məmurların arasında çoxlu sayda erməni və erməni təsiri altına düşənlər var. Separatçı rejimlə əməkdaşlıq edən, müqavilə bağlayan yerli ərazi subyektləri təsadüfən seçilməyib. Erməni diasporu seçib məhz ermənipərəst merlərlə bu işi görüb. Təbii ki, bunun müqabilində onlara hansısa ödənişlər də edilib. Hətta əminliklə deyə bilərəm ki, həmin merlərin seçilməsinə belə, erməni diasporu təsir etmək gücündədir. İstisna edilmir ki, onlardan bəzilərini məhz erməni diasporu dəstəkləyib mer edib. Onların müqaviməti yersiz və perspektivsizdir. Çünki məhkəmə tam ədalətli, qanunlara söykənən qərar verib. Məhkəmənin qərarını isə hayküylə, şantajla dəyişmək mümkün deyil. Fransanın yuxarı instansiya məhkəmələri qərarı qüvvədə saxlayacaqlar. Çünki onu ləğv etmək üçün heç bir qanuni əsas yoxdur. Amma bu məsələdə bütün dünyadakı Azərbaycan diasporu fəal olmalıdır. Biz aktiv şəkildə Fransa məhkəmələrinin ədalətli qərarını alqışlamalıyıq. Belə dəstək aksiyaları bütün şəhərlərdə keçirilsə yaxşıdır. Burada söhbət Azərbaycanın ərazi bütövlüyündən gedir. Fransa məhkəmələri faktiki olaraq onu dəstəkləyib.

Mən başa düşə bilmirəm, niyə bizim müxalifət və ya xaricdə yaşayan müxalif mövqeli şəxslər bu məsələ ilə bağlı mövqe ortaya qoymur? Onlar çox yanlış yol seçiblər. Biz bu məsələdə informasiya mübarizəsi aparmalıyıq. Bir də xaricdəki diaspor təşkilatlarımızı bu təbliğata səfərbər etməliyik. Biz bu istiqamətdə işlərə artıq start vermişik. Digər təşkilatları da fəal olmağa çağırıram".

***Məhəmmədəli QƏRİBLİ***

# Konqresmen Frenk Pallonedən ABŞ-ın Azərbaycandakı imicini qaralayan ədalətsiz "Artsax çağırışı"...

**ABŞ Konqresinin Ermənistan məsələləri üzrə komitəsinin həmsədri Frenk Pallone Nümayəndələr Palatasının iclasında çıxış edərək növbəti dəfə Azərbaycanın işğal altındakı torpaqlarında qondarılmış separatçı-terrorçu rejimə dəstək verib.**



Erməni KİV-inin yaydığı məlumatda bildirilir ki, F.Pallone Konqresin Nümayəndələr Palatasının Xarici maliyyələşdirmə üzrə sədri Nitu Lounu özünün Dağlıq Qarabağa səfərlərə məhdudiyyətləri aradan qaldırmaq üçün qətnaməyə uyğun qanuni səylərini dəstəkləməyə və bununla da ABŞ Dövlət Departamentinin Dağlıq Qarabağa səfərlərə qoyduğu məhdudiyyətlərə son qoymağa çağırıb. Bu haqda məlumat Amerika Erməni Milli Komitəsi (ANCA) tərəfindən yayılıb. Ermənipərəst konqresmen iddia edib ki, yalnız "ABŞ diplomatlarının birbaşa separatçı rejimlə dialoqa girməsi sayəsində Qarabağ münaqişəsini tənzimləmək mümkündür". Mənbənin məlumatına görə, digər konqresmen N.Lou da Palloneyə bu məsələdə dəstək verəcəyini vəd edib.

Ermənipərəst konqresmen ABŞ-la qondarma rejimin birbaşa münasibətlərinin dərinləşməsi, əlaqələrin genişlənməsinin vacibliyinə diqqəti yönəldib. Pallonenin bu qərəzli mövqeyi ABŞ-ın Azərbaycandakı imicinə necə təsir edir?

Qeyd edək ki, Frenk Pallone adı ölkəmizə yaxşı tanışdır. Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərinə qanunsuz səfər edərək Azərbaycanın ərazi bütövlüyü və suverenliyini nümayişkəranə şəkildə pozmuş ABŞ konqresmenlərindən biridir. Hətta bir neçə il bundan əvvəl onun adı digər konqresmenlər - Nümayəndələr Palatasının üzvləri: David Valadao və Tulsi Qabbardın ilə birlikdə arzuolunmaz şəxslər siyahısına daxil edilib.

Təəssüflər olsun ki, bu kimi qanunsuz və qərəzli davranışla o, Azərbaycan ictimai fikrində və beynəlxalq səviyyədə ABŞ Konqresinin nüfuzuna ləkə vurur. Onun Ermənistan və erməni lobbisi ilə əlbir bu hərəkətləri təxribatdır, regionda davamlı sülhün təmin edilməsi və münaqişənin həlli istiqamətində ABŞ-ın da daxil olduğu ATƏT-in Minsk Qrupunun həmsədrlərinin səylərini pozulmasına xidmət edir. Bu şəxsin ABŞ-da fəaliyyət göstərən erməni lobbi dairələri, xüsusilə radikal, irqçi təşkilat olan Amerika Erməni Milli Komitəsinin maliyyə təsiri altında olduğu dəfələrlə öz əməlləri ilə sübut edilib.

Pallone dəfələrlə belə təşəbbüslə çıxış edib. Bildirib ki, ABŞ Dövlət Departamenti Azərbaycanın işğal altındakı torpaqlarına qanunsuz səfər edən şəxslərə məhdudiyyətlər tətbiq edir. Bir müddət əvvəl erməni diasporuna etdiyi şikayətdə o bildirib ki, Qarabağa getmək üçün ABŞ-a məxsus nəqliyyat vasitələrindən istifadə edə bilmir. Dövlət Departamenti ona tez-tez ora getməyin təhlükəli olması barədə xəbərdarlıq edir. Hazırda bu şəxs ölkəsilə qondarma "Dağlıq Qarabağ Respublikası" arasında olan baryerlərin aradan qaldırılmasına dair tələb irəli sürüb. Bu iddia ilə erməni KİV-i çıxış edib. Azərbaycan müstəqil siyasət yürüdən bir ölkə, etibarlı tərəfdaş kimi beynəlxalq aləmdə layiqli yerini tutub. Təbii ki, bütün bunlar dostlarımızı sevindirməklə bərabər, Azərbaycanın 20 faiz ərazisini işğal etmiş, 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsinə səbəb olmuş Ermənistanı, dünyadakı erməni diaspor təşkilatlarını daim narahat edir. Ona görə də Ermənistan siyasi rəhbərliyi dünyadakı erməni diasporunun imkanlarından, eləcə də onların təsiri altında olan xarici diplomatlardan, siyasətçilərdən, deputatlardan öz məqsədləri üçün yararlanır. ABŞ-Azərbaycan münasibətlərinin yaxşı olduğu indiki məqamda da ermənipərəst dairələr aktivlik nümayiş etdirməkdədirlər.

Belə xoşagəlməz hallar bundan əvvəl də olub. Amerikalı konqresmen Kris Smiti və başqalarını buna misal çəkə bilərik. Frenk Pallonenin bütün fəaliyyəti ABŞ-Azərbaycan münasibətlərinin inkişaf etdiyi dönəmlərdə Vaşinqtonla Bakı arasında gərginlik yaratmağa, əlaqələri zəiflətməyə yönəlib. Ancaq əminliklə deyə bilərik ki, bu cür səylərin heç bir faydası olmayacaq. Çünki Pallonenin demokratik adlandırdığı rejim terrorçulardan ibarət bir hərbi xuntadır. Onlar işğal altında olan ərazilərdə müvəqqəti qurum yaradıblar, onu "dövlət" adı ilə dünyaya sırımaq istəyirlər. Çox təəccüblüdür ki, həmin xuntanı heç Ermənistanın özünün tanımağa cəsarətinin çatmadığı bir halda, dünyanın demokratik ölkəsinin konqresmeni ora ilə əlaqələrin qurulmasından danışır. Özü də həmin qondarma rejimi demokratik bir quruluş kimi xarakterizə edir. Konqresmenin bu addımı, ilk növbədə, ABŞ-ın öz adına utanc gətirir.

***Məhəmmədəli QƏRİBLİ***

# Fransa məhkəmələrinin qərarları erməni lobbiçilərini böyük etiraflara məcbur etdi...

***Yeganə Hacıyeva:** "Ermənilərin qorxduğu məhz bu presedentdir"*

**Məlum olduğu kimi, Fransa məhkəmələrində Qarabağdakı separatçı rejimlə bu ölkənin şəhərləri arasında imzalanmış "dostluq xartiyaları"nın ləğv edilməsi prosesinə start verilib. Fransanın Serji-Pontuaz məhkəməsinin Arnuvilin qondarma Dağlıq Qarabağdakı Şeher inzibati bölgəsi ilə "Dostluq haqqında xartiya"sını ləğv etməsinin ardınca Qrenobl inzibati məhkəməsi tərəfindən də bənzər qərar qəbul olunub.**



Qrenobl məhkəməsinin 4 "dostluq xartiyası"nı ləğv etdiyi bildirilir. Vurğulanır ki, prefektin müraciəti əsasında Qrenobl inzibati məhkəməsi iyunun 11-də Drom departamentinin özü, həmçinin, bu departamentdə yerləşən Valans, Bur-le-Valans və Burdö-Peaj kommunaları ilə Azərbaycanın 25 ildən artıqdır işğal altında olan ərazilərindəki inzibati bölgələr arasında imzalanmış dörd "xartiya"nı ləğv edib.

Bu "xartiyalar"ın ləğv olunmasının səbəbləri kimi onların Fransanın xarici siyasət kursuna və beynəlxalq öhdəliklərinə uyğun gəlməməsi, həmçinin, bu ölkənin ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi bitərəfliyini şübhə altına alması göstərilir.

Fransa məhkəmələrində Qarabağdakı separatçı rejimlə bu ölkənin şəhərləri arasında imzalanmış "dostluq xartiyaları"nın ləğv edilməsi Ermənistanda və erməni lobbisində ciddi narahatlıq yaradıb. Ermənilər etiraf edirlər ki, bu, ilk növbədə, Azərbaycanın beynəlxalq hüququn normalarına uyğun olaraq məsələni hüquqi müstəviyə çıxarması və bu istiqamətdə fəal iş aparmasının nəticəsidir. Digər tərəfdən, ermənilər onu da etiraf etməyə məcburdurlar ki, Fransada erməni lobbisi nə qədər güclü olsa belə, ATƏT MQ-nin həmsədri kimi Fransa neytrallıq saxlamağa məcburdur.

Göründüyü kimi, Azərbaycan həm hüquqi müstəvidə, həm də beynəlxalq siyasi və iqtisadi təsir imkanları vasitəsilə istənilən qanunsuz, anti-Azərbaycan xarakterli addımların qarşısını almaq gücündədir. Artıq bu acı məğlubiyyət haqda Fransada yaşayan və erməni diasporunun tanınmış nümayəndələri də açıq narahatlıq ifadə etməyə başlayıblar. Bunlardan biri erməni əsilli politoloq Gaids Minassiandır. O, "Le Monde" qəzetinin elektron versiyasında rəhbər işçilərdən biridir, Dağlıq Qarabağ münaqişəsi, Cənubi Qafqaz üzrə ekspert qismində çıxış edir. Fransada yaşasa da, tez-tez Ermənistana gedib-gəlir, aprel döyüşlərindən sonra Fransa mətbuatında Azərbaycana qarşı çirkin kampaniya təşkil edənlərdən biri olub. Fransada yaşayan erməni jurnalist baş verənlərə görə həm Ermənistan, həm də erməni lobbisinin məsuliyyət daşıdığını deyib. Onların fəaliyyətində dəyişiklik olmayacağı təqdirdə, bu prosesin davamlı xarakter daşıyacağını bildirib. Göründüyü kimi, istər Ermənistanda fəaliyyət göstərən KİV, istərsə də Fransa və bütün dünyadakı erməni lobbisi bu məsələ ilə bağlı ciddi narahatlıq keçirdiklərini açıq şəkildə ifadə edirlər. Bu aşırı narahatlığın səbəbi nə ilə bağlıdır?

**Politoloq Yeganə Hacıyeva baki-xeber.com-a bildirdi ki, Fransanın Serji-Pontuaz inzibati məhkəməsinin qərarında olduğu kimi, Qrenobl inzibati məhkəməsinin də qəbul etdiyi bu qərar ölkənin yerli özünüidarəetmə orqanlarının Fransa qanunvericiliyi və beynəlxalq öhdəliklərinə zidd olaraq Azərbaycanın işğal edilmiş əraziləri ilə imzaladığı qanunsuz sənədləri ləğv edir:**

"Ötən həftə Dağlıq Qarabağ problemi ilə bağlı Fransada Azərbaycanın və onun diplomatiyasının xeyrinə çox mühüm qərarların qəbul edilməsi ilə yadda qaldı. Fransa məhkəmələri vaxtilə bu ölkənin şəhərləri ilə işğal altında olan Dağlıq Qarabağdakı yaşayış məntəqələri arasında imzalanmış "dostluq memorandumlarını" bir-birinin ardınca ləğv etdi. Bu, şübhə yox ki, Azərbaycanın milli maraqlarına cavab verən hadisədir. Çünki söhbət beynəlxalq hüququn aliliyinin əsas götürülərək qanunsuz anlaşmaların ləğv edilməsindən, Dağlıq Qarabağdakı separatçı qurumun beynəlxalq hüququn subyekti olmamasının təsbitindən gedir. Məsələnin özəlliyi həm də ondadır ki, Fransa ATƏT-in üç həmsədrindən biri və erməni lobbisinin ən güclü olduğu dövlətdir. Ermənilərin ən böyük təlaşı da onunla bağlıdır ki, Azərbaycan diplomatiyası və lobbisi Fransa kimi ermənipərəst, ən böyük erməni etnosunun kök saldığı bir dövlətdə də Qarabağ gerçəyini qəbul etdirə bilirsə, o zaman başqa Avropa dövlətlərində buna daha asan nail ola bilər. Ermənilərin qorxduğu məhz bu presedentdir. Məlumdur ki, ermənilər bu qanunsuz faktordan istifadə edib, Dağlıq Qarabağ regionunda yaradılmış qondarma qurumu müxtəlif təşkilatlara cəlb edirlər. Nə qədər qanunsuz sayılsa da, onlar Dağlıq Qarabağda kütləvi tədbirlər keçirir, xarici ölkələrdən qonaqlar dəvət edirdilər. Hər keçirilən tədbir və ya görüş də xarici mediada işıqlandırılırdı. Bununla da qanunsuz rejimin təbliğinə nail olurdular.

Biz Fransa məhkəmələrinin qəbul etdiyi qərarlarla bağlı sistemli iş aparmalıyıq. Bunu fakt kimi, qondarma qurumla əlaqələr quran və bu amili yerli özünüidarətmə qurumlarının qərarı kimi bizə çatdırmağa çalışan ölkələrin nəzərinə çatdırmalıyıq. Fransa məhkəmələri, əslində, borclu olduqları ədalətli qərarları veriblər. Amma, istənilən halda, buna Azərbaycanın diplomatik səyləri nəticəsində nail olunub. Yəni həmin qərarların hazırlanması üçün möhkəm baza rolunu Azərbaycanın müəyyənləşdirdiyi düzgün siyasəti oynayıb".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan səfirin Köçəryanla təkbətək görüşünü Rusiya əleyhinə yeni prosesə çevirir...

## Elşən Mustafayev: "Rusiya bununla Paşinyana növbəti baş naziri göstərir"

**Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Ermənistanın sabiq prezidenti Robert Köçəryanla görüşdən sonra bu ölkənin Xarici İşlər Nazirliyinə çağırılıb. Erməni mətbuatının verdiyi məlumata görə, bu barədə Ermənistan parlamentinin xarici əlaqələr komissiyasının sədri Ruben Rubunyan bildirib: "Rusiya səfiri ilə Köçəryanın görüşünün də müzakirə edildiyi xarici əlaqələr komissiyasının iclasından sonra mən xarici işlər naziri Zöhrab Mnatsakanyanla danışdım.**



Nazir mənə səfirin XİN-ə çağırıldığını və onunla Ermənistanın daxili işlərinə müdaxilə kontekstində söhbət aparıldığını deyib".

Ermənistan XİN-in mətbuat katibi səfirin Xarici İşlər Nazirliyinə çağırıldığını təsdiqləyib.

Xatırladaq ki, iyunun 13-də Rusiyanın səfiri Kopırkin ikinci prezident R.Köçəryanla görüşüb. Görüş Köçəryanın ofisində bir saatdan çox təklikdə davam edib.

Bundan sonra səfirlik açıqlama verərək, Kopırkinin Köçəryanla ictimai-siyasi və işgüzar dairələrin nümayəndələri ilə müntəzəm görüşlərin bir hissəsi kimi bir araya gəldiyini deyib.

Ermənistan parlamentinin spikeri Ararat Mirzoyan jurnalistlərə Rusiya səfirinin Köçəryanla görüşünü alqışlamadığını deyib: "Mən bu görüşü alqışlamıram. Hər hansı bir ölkənin səfiri siyasi sahənin bütün spektrinin nümayəndələri ilə görüşə bilər, burada isə başqa bir məqam var - bu insana qarşı irəli sürülən ittihamlar onu təmiz siyasi sahədən kənarlaşdırır. Burada söhbət bir çox başqa xüsusiyyətlərdən, maraqlardan gedir, buna görə də qəbul etmirəm. Yəni mən R.Köçəryanı siyasi xadim, siyasi sahəni təmsil edən biri kimi görmürəm, əks halda, Rusiya səfiri və yaxud digər səfirlə ünsiyyəti alqışlayardım".

Göründüyü kimi, Ermənistan rəhbərliyi Rusiya səfirinin Köçəryanla görüşməsi faktını süngü ilə qarşılayır. Əslində, istənilən ölkədə akkreditə olunan səfirin həmin dövlətin ərazisində qanuni fəaliyyətlə məşğul olan qurumlarla təmaslar qurması tam normaldır. Burada qanunazidd nəsə yoxdur. Belə olan təqdirdə, niyə Rusiyanın Ermənistandakı səfiri eks-prezidentlə görüşdüyünə görə belə təzyiqlə üzləşib? Ermənistan nədən ehtiyat edir?

**AMİP funksioneri Elşən Mustafayev qəzetimizə bildirdi ki, Ermənistan rəhbərliyinin keçirdiyi əndişə təsadüfi deyil:** "Bilirsiniz ki, Paşinyan hələ ki, konkret siyasi oriyentasiyasını müəyyən edə bilməyib. Rusiya bilir ki, Paşinyanın qəlbi onlarla döyünmür. Sadəcə, müəyyən asılılıqlara görə Rusiyaya yaltaqlanmağa məcburdur. Rusiyanın Ermənistanda ciddi maraqları və dayağı var. Bura hərbi bazalardan tutmuş, İran və Türkiyə ilə sərhədə nəzarətə kimi məsələlər aiddir. Yəni Moskva heç vaxt Ermənistandakı prosesi nəzarətsiz buraxmaz. Paşinyanın bir il sürən hakimiyyəti göstərir ki, həmin adam heç ölkənin daxili siyasətinə belə nəzarət edə bilmir. İnqilab ərəfəsində Rusiya Paşinyanın hakimiyyətə gəlməsinə ciddi mane olmaq istəmədi. Onların addımları məhz buna hesablanmışdı. Bilirdilər ki, hakimiyyətin idarə olunmasında heç bir təcrübəsi olmayan komanda qısa müddətdə özünü biabır edəcək. İndi də həmin mənzərəyə şahidlik edirik. Ermənistan ciddi problemləri olan ölkədir. Bir tərəfdən müharibə və onun ölkəyə verdiyi iqtisadi blokada. Digər tərəfdən isə klan davası Paşinyanı çox rəzil durumla üz-üzə qoyub. Buna görə də Rusiya artıq indidən alternativ üzərində düşünür. Paşinyan da bilir ki, həmin şəxs R.Köçəryandır. Sarkisyana xalq qəzəbli olduğu üçün, hələlik Rusiya Köçəryanın üzərində dayanıb. Köçəryanın həbsdən Paşinyanın iradəsinə zidd olaraq çıxarılması və Baş nazirin onu yenidən həbsə qaytara bilməməsi cəmiyyət içində Köçəryanın mövqeyini xeyli gücləndirib. Paşinyan və komandası Rusiya səfirinin Köçəryanla görüşməsini təsadüfi saymır. Bu, çox böyük bir mənanı özündə kəsb edir. Rusiya bununla Paşinyana növbəti baş naziri göstərir. Yəni onların dəstək verəcəyi şəxsi. Əslində, səfirin hərəkətində qanunsuz məqam yoxdur. Paşinyan da bu cür sərt münasibəti ilə hadisələri qabaqlamaq istəyir. Rusiyaya plandan xəbəri olduğu ismarıcını verir. Yəqin ki, həmin görüşdə səfir Köçəryana gələcək fəaliyyətinin konturlarının necə olacağı ilə bağlı da istiqamətlər verib. Yaxın zamanlarda biz Köçəryanın daha da fəal addımlar atacağını görəcəyik. Ermənistan rəhbərliyinin narahatlığı Moskvanın onları devirmək istəyən şəxslə yaxından əməkdaşlıq etməsindədir".

*Məhəmmədəli QƏRİBLİ*

# Avroittifaq ali komissarın Mnatsakanyanla Qarabağ müzakirəsi barədə məlumat yaymadı - erməni təbliğatı istədiyi yalanı danışmaq imkanı əldə etdi...

## Ramil Hüseynov: "Bu ondan xəbər verir ki, Mogerini - Mnatsakanyan görüşü o qədər də uğurlu alınmayıb"

**Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Federika Mogerini Ermənistanın xarici işlər naziri Zohrab Mnatsakanyanla görüşüb. Görüşdə bir sıra məsələlər, xüsusən də Dağlıq Qarabağ münaqişəsi ətraflı müzakirə edilib.**



Mogerini Mnatsakanyanla görüşdə sözügedən məsələyə daha çox yer ayırıb. Ancaq diqqəti çəkən məqam odur ki, erməni mətbuatı, nədənsə, Mogerini - Mnatsakanyan görüşü barədə çox məhdud çərçivədə məlumat yayıb. Görüşdə müzakirə olunan məsələlər barədə, o cümlədən Qarabağla bağlı aparılan müzakirələr haqqında geniş məlumat verməyib. Halbuki, tərəflərin görüşü zamanı bu məsələ geniş müzakirə edilib. Ən maraqlı məqam odur ki, sözügedən görüş barədə Aİ heç bir məlumat yaymayıb. Xüsusən də Qarabağ məsələsi barədə hansı müzakirələrin getdiyi bildirilməyib. Adətən bu cür görüşlər barədə qurumun rəsmi saytında məlumat yerləşdirilir. Nədənsə, Mogerini - Mnatsakanyan görüşü barədə bu baş vermədi. Erməni mətbuatı da bundan isifadə edərək öz yalanlarını yayır. Maraqlıdır, Avropa İttifaqı niyə bu barədə məlumat yaymayıb?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, bu ondan xəbər verir ki, Mogerini - Mnatsakanyan görüşü o qədər də uğurlu alınmayıb: "Çox güman ki, Mogerini Mnatsakanyana Ermənistanın inkişaf etməsinin Qarabağ münaqişəsinin həllindən asılı olduğunu deyib. Ötən bir ildə Ermənistanda yeni hakimiyyətin bu yöndə yetərincə cəsarətli addımlar ata bilmədiyi deyilib. Görünür, məlum olub ki, Paşinyan hakimiyyəti get-gedə Rusiyadan daha çox çəkinməyə başlayıb. Bu da Avropa İttifaqının maraqlarına cavab vermir. Baxmayaraq ki, bir il əvvəl Aİ-nin Paşinyandan gözləntiləri daha böyük idi. Hesab edirdilər ki, Paşinyan Ermənistanın Rusiyadan asılılığının azaldılması istiqamətində daha ciddi addımlar atar, islahatlar həyata keçirər və s. Ancaq son aylar Paşinyanın siyasi gedişlərinə baxdıqda məlum olur ki, o, Rusiyaya doğru reveranslarını artırıb. Avrasiya İqtisadi İttifaqında iştirak fəallığını artırıb. İqtisadi imkanları məhdud olmağına rəğmən, Rusiyadan kredit hesabına əlavə silahlar almağa çalışır. Özü də Rusiyadan alınan kredit hesabına. Təbii ki, bu kimi addımlar Ermənistanın Rusiyadan asılılığının azalmasına yox, əksinə, daha da artmasına xidmət edir. Hesab edirəm ki, Aİ-nin bu yöndə narahatlığı Mogerini - Mnatsakanyan görüşündə ifadə olunub.

### "Bir il əvvəl Aİ-nin Paşinyandan gözləntiləri daha böyük idi"

Ermənistanın Avropa təsisatlarından sərmayə və maliyyə yardımları ilə bağlı gözləntiləri böyükdür. Ancaq Aİ bəzi proqramlar çərçivəsində Ermənistana müəyyən maliyyə yardımı göstərsə də, böyük vəsaitlər ayırmağa tələsmir. Fikrimcə, nə qədər ki, Ermənistan Aİ-nin şərtlərini yerinə yetirməyib, böyük maliyyə yardımları olmayacaq".

*Vidadi ORDAHALLI*

# Rusiya səfirinin Köçəryanla görüşünün mahiyyəti açılır - "Köçəryan-Putin görüşü hazırlanır"

**İşğalçı Ermənistanın xarici siyasət sahəsində ciddi fiaskoya uğraması birəmanlı həqiqətdir. Özü də erməni lobbisinin güclü olduğu ölkələrdə baş verən son hadisələr fonunda qeyd edilənlər özünü kifayət qədər aydın surətdə büruzə verir. Məsələn, elə Fransada yaşananlar erməni tərəfinin artıq lobbiyə güvəninin də heç bir əsasının olmadığını aydın surətdə büruzə verir.**

Xatırladaq ki, bir müddət əvvəl Serji-Pontuaz məhkəməsinin qərarı ilə Arnuvil şəhərinin qondarma Dağlıq Qarabağdakı Şeher inzibati bölgəsi ilə "Dostluq haqqında xartiya"sı ləğv edildi. Eyni qərarla Arnivul şəhəri ilə Azərbaycanın işğal altında olan Xocavənd rayonu arasında imzalanmış "dostluq xartiyası" da ləğv olundu. Daha sonra Qrenobl məhkəməsi eyni xarakterli 4 "dostluq xartiyası"nı ləğv etdi. Qrenobl məhkəməsinin qərarında Frasanın Valans, Burq le Valasn və Burq de Peaj bələdiyyələrinin müvafiq olaraq Xankəndi, Şuşa və Martuni ilə imzaladıqları analoji sənədlər yolverilməz hesab olunub. Bütün bunlara mane olmaq üçün Fransadakı erməni lobbisinin cəhdləri hansısa fayda verməyib.

Proseslər göstərir ki, Bakının indi tək Fransada yox, bütün digər ölkələrdə Qarabağın işğal edilməsi faktını dünyaya çatdırmaq kimi fəaliyyəti artıq müsbət nəticələrini verir və ermənilər üçün böyük zərbəyə çevrilir. Yaranmış durumda "İşıqlı Ermənistan" fraksiyasının deputatı Arman Babacanyan bildirib ki, Fransa məhkəmələrinin qərarları Ermənistan Xarici İşlər Nazirliyinin fəaliyyətsizliyinin nəticəsidir: "Belə qərarların veriləcəyi proqnozlaşdırılırdı. Çünki Azərbaycan Fransada genişmiqyaslı iş aparır, biz isə heç bir fəaliyyət göstərmirik. Hər şeydə tamamilə diasporun potensialın ümid edirik, gözləyirik ki, diaspor nəsə edəcək. Lakin onlar yalnız vəkil tapa bildilər, vəkilin də əlindən heç nə gəlmədi".

Hesab edilir ki, prosesin davamı Ermənistanın daha böyük diplomatik məğlubiyyətə tuş gəlməsi ilə nəticələnəcək. Amma ermənilər böyük zərbəni təkcə Fransada almır. Son dövrlərdə ABŞ, Rusiya kimi ölkələrlə də Ermənistanın münasibətlərində ciddi problemlər qeydə alınır. İrəvan özü də Vaşinqton və Moskvanın onlara lazımi diqqət göstərməməsindən narazılıq edir. Əvəzində hər iki ölkənin Azərbaycanal yüksələn münasibətləri Ermənqistanda ciddi qıcıq yaradır. Digər tərəfdən, Rusiyanın Nikol Paşiynan hakimiyyətinə münasibəti də prosesdə az rol oynamır. Belə görünür ki, Azərbaycanla münavsibətlərin inkişafı fonunda Rusiya həm də Ermənistan daxilində mövcud hakimiyyətə qarşı fəaliyyətini genişləndirməyi düşünür. Bunun təsdiqi qismində erməni mediası Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin bir neçə gün əvvəl sabiq prezident Robert Köçəryanla görüşünə diqqət çəkir. İrəvan artıq bundan ciddi narazılıq ifadə edib. Rusiyanın Ermənistandakı səfirliyi yaranan narahatlıq fonunda məsələni şərh etməli olub. Səfirlik məlumat yayıb ki, Sergey Kopırkinin Ermənistanın sabiq prezidenti ilə görüşü onun Ermənistanın siyasi xadimləri ilə müntəzəm



görüşləri çərçivəsində baş tutub: "Səfir müntəzəm olaraq Ermənistanın ictimai-siyasi və biznes dairələrinin nümayəndələri ilə görüşlər keçirir. Belə görüşlərdən biri də Ermənistan Respublikasının ikinci prezidenti Robert Köçəryanla olub". Amma indi məlum olur ki, məlum Kopırkinin sabiq prezidentlə danışıqları zamanı Köçəryanla Putinin mümkün görüşü müzakirə olunub. Köçəryan bildirib ki, azadlıqda və ya həbsdə olmasından asılı olmayaraq, Putinlə görüşmək niyyətindədir. Məlumata görə, artıq Putin Köçəryanla mümkün görüşü ilə bağlı göstəriş verib. Bu isə Ermənistan hakimiyyəti üçün ciddi təhdid sayılır və Rusiyanın ona münasibətini açıq meydana qoyur. Keçmiş iqtidar partiyası olan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov bu xüsusda bildirir: " Kopırkin-Köçəryan görüşündən belə narahat olmusunuzsa, sizi daha da narahat edim". Onun sözlərinə görə, Kopirkinin Serj Sarksiyanla də görüşü olub: "Hakimiyyətin deputatlarından biri bəyan edib ki, Rusiya səfiri Ermənistanın daxili işlərinə qarışmaması kontekstində Ermənistan Xarici İşlər Nazirliyinə söhbətə dəvət edilib. Bəs Bolton birbaşa Ermənistanın daxili işlərinə müdaxilə və erməni xalqını tarixi ideologiyasından imtina etməyə dəvət edərkən, bir adam yoxdur ki, desin siz və sizin şefiniz hardaydı?".

O qeyd edib ki, dövlətin idarə edilməsi və dövlətlərarası münasibətləri partiyadaxili və qruplaşmadaxili münasibətlərlə qarışdırmaq olmaz: "Kopırkinin isə Köçəryandan savayı Serj Sarksiyanla da bir neçə görüşü olub. Bu görüşlər Rusiya səfirliyində və Respublika Partiyasının ofislərində baş tutub. Əsəbiləşmək və çaşmaq əvəzinə Nikol və onun tərəfdaşları rəsmi və parlament diplomatiyasının alfa ve omeqasını mənimsəsələr daha yaxşıdır". Ermənistan parlamentinin sədri Ararat Mirzoyan isə ABŞ və Rusiyada dəstək qazanan keçmiş iqtidar təmsilçiəlrinin Ermənistana qarşı sərt oyunlar oynadığını, bundan isə ölkəyə qarşı olanların qazanacağını bildirib: "Baş verən oyunlar həddindən artıq yüksəkdir və masaya təmamilə başqa bir mövzu qoyulub".

**Onun sözlərinə görə, bu müharibə Ermənistanın xəyallarına, perspektivinə qarşı elan olunub: "Bizə qarşı müharibə elan edildiyi aydındır. Lakin bu müharibə siyasi komandaya qarşı deyil, Ermənistanın xəyallarına, perspektivinə qarşı elan olunub". Məsələnin maraqıl tərəfi odur ki, ABŞ və Rusiyada olan erməni lobbisi artıq əvvəlki kimi həmin ölkələrin Ermənistana qarşı sərt davranış sərgiləməsinin qarşısını ala bilmir. Bu isə təkcə Fransa yox, ABŞ və Rusiyada da erməni lobbisinin aciz duruma düşdüyünü aydın göstərir.**

*Tahir TAĞIYEV*

## Tramp 11 sentyabr hücumlarının arxasında kimlərin olduğunu bildiyini deyir - ”İraq deyildi...”

**ABŞ Prezidenti Donald Tramp 11 sentyabr 2001-ci ildə ABŞ-da terror hücumlarının arxasında kimlərin olduğunu bildiyini söyləyib.**



Baki-xeber.com xəbər verir ki, "ABC News"a açıqlama verən Tramp ABŞ-ın Orta Şərqə hərbi müdaxiləsini "ölkə tarixində ən pis qərar" olduğunu deyərək sərt tənqid edib.

Bölgəni "bataqlıq" kimi xarakterizə edən Tramp "Orta Şərqə getmək qorxunc bir qərar idi. Qorxunc" - deyib. 11 sentyabr hücumlarının arxasında kimin olduğunu bildiyinə eyham vuran Tramp deyib: "Bu, İraq deyildi, başqaları idi və məncə, onların kim olduğunu bilirəm".

Qeyd edək ki, 11 sentyabr 2001-ci ildə çoxu səudiyyəli "Əl-Qaidə" terrorçuları tərəfindən Nyu-Yorkdakı məşhur "Əkiz qüllələr" və Virginiya əyalətindəki Müdafiə Nazirliyi (Pentaqon) mərkəzinə kamikadze hücumları təşkil edilmiş, təxminən 3000 nəfər həlak olmuşdu.

# ABŞ İranı vurmaq üçün hazırlıqlara başladı - "Böyük bir bombardman olacaq, lakin..."

**ABŞ İranın nüvə proqramına bağlı obyektləri bombalamaq niyyətindədir. Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, bu iddia ilə BMT-dəki adı açıqlanmayan mənbə çıxış edib.**

"Maariv" qəzetinə açıqlama verən BMT-dəki mənbə cümə günündən etibarən Ağ Evdə yüksək rütbəli komandanlar, Müdafiə Nazirliyinin nümayəndələri və



Trampın müşavirləri arasında İranla bağlı müzakirələr getdiyini deyib.

İddialar görə ABŞ Oman körfəzində tankerlərə hücumlara görə günahkar bildiyi İrana qarşı taktiki hücum hazırlayır. ABŞ İranın nüvə fəaliyyətləri ilə əlaqəli bir obyekti bombalamaq niyyətindədir. Qərbli bir diplomat isə "Böyük bir bombardman olacaq, lakin məhdud olacaq, bir hədəf vurulacaq" deyib.

# Tərəfsiz politoloqların son qənaəti - Zaman Azərbaycanın xeyrinə işləyir, vəziyyət Ermənistanın əleyhinə dəyişir

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



**Məlumat verildiyi kimi, iyunun 20-də Vaşinqton şəhərində Azərbaycan xarici İşlər naziri Elmar Məmmədyarov və onun erməni həmkarı Zöhrab Mnatsakanyan arasında ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə görüş keçiriləcək. Görüş ərəfəsində erməni tərəfinin sərgilədiyi mövqe və cəbhədə artan düşmən təxribatları nazirlərin yenidən bir araya gəlməsindən hansısa yüksək nəticələrin əldə oluna biləcəyini hələlik ciddi sual altına alır.**

Buna rəğmən, Bakı görüşə ümidlə yanaşır və İrəvanın bundan sonra Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli istiqamətində müvafiq addımlar atacağına inamını gizlətmir.

Ermənistan rəsmilərinin real mövqeyi isə işğalçı tərəfin əslində prosesləri hələ də adekvat şəkildə qiymətləndirməkdə acizlik yaşadığını göstərir. Eyni zamanda, İrəvanın yanaşması qarşı tərəfin sülh prosesində o qədər də maraqlı olmadığını deməyə əsas verir. Bunu nazirlərin görüşü ərəfəsində "Şant" televiziyasına müsahibəsi zamanı Ermənistanın baş naziri Nikol Paşinyanın dedikləri də təsdiqləyir. Azərbaycan və həmsədrlər təərfindən qətiyyətli və birmənalı mövqeyə rəğmən, Paşinyan qondarma qurumun danışıqlar masasına gətirilməsi ilə bağlı verilən suala bu şəkildə cavab verib: "Mən öncədən demişəm ki, yalnız Ermənistan adından danışıqlar apara bilərəm, Qarabağ adından isə yox". Halbuki, bundan əvvəl Azərbaycan və həmsədrlər çox açıq şəkildə bildirmişdilər ki, Qarabağ məsələsində danışıqlar formatının dəyişməsi mümkün deyil. İndi Paşinyanın yenidən bu məsələyə qayıtması danışıqlar prosesini pozmağa yönəlmiş addım olmaqla yanaşı, həm də savaşı tətikləyən faktor qismində çıxış edir. Ermənistanın müdafiə nazirinin Azərbaycan hərbi qulluqçusunu qətlə yetirənləri şəxsən mükafatlandırması da savaşa xidmət edən məqamlardan sayılır. Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bu xüsusda bildirir: "Ermənistanın elə özü münaqişənin guya "Azərbaycanla Dağlıq Qarabağ arasında olması" rəvayətini yox edir. Bu ölkənin müdafiə nazirinin son hərəkətləri Ermənistanın təcavüzkar siyasətini növbəti dəfə təsdiq edir. Məhz buna görə də Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar işğalçı Ermənistanla əraziləri işğal olunan Azərbaycan arasında aparılır.

Münaqişənin həlli üzrə danışıqların mövzusuna gəldikdə, hər zaman qeyd etmişik və bir daha təkrar etmək istərdik ki, Azərbaycanın işğal olunmuş ərazilərinin işğalçı qüvvələrdən boşaldılması və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması müzakirələrin əsas mahiyyətini təşkil edir. ATƏT-in Minsk Qrupunun 9 mart 2019-cu il tarixli bəyanatında müzakirələrin əsas prinsip və elementlərinə aydınlıq gətirilir. Əlbəttə, danışıqlar eyni çərçivədə və mövcud zəmin əsasında davam etdirilməlidir. Bundan öncəki görüşlərdə əldə edilmiş razılıqların, xüsusilə də Minsk Qrupu həmsədrlərinin təklif etdiyi kimi, iki ölkə əhalisinin sülhə hazırlanması istiqamətində səylər davam etdirilməlidir, çünki bu, prosesin irəli aparılması baxımından vacibdir. Vaşinqton görüşündən gözləntiyə gəldikdə isə, hər bir görüşdən gözlənti, əlbəttə, substantiv danışıqlarla prosesin irəli aparılmasıdır. Xarici işlər nazirlərinin Moskva görüşünün davamı olaraq, Vaşinqton görüşündə ümid edirik ki, tərəflər daha konkret nəticələr əldə edəcək. Həmçinin, fikrimizcə, Ermənistan rəhbərliyinin mövqeyindəki qeyri-müəyyənliyə son qoyulmalıdır. Yalnız aydın mövqe, qətiyyət və siyasi iradə münaqişənin Ermənistan tərəfinin hər zaman dediyi kimi "eksklüziv olaraq sülh yolu ilə həllinə" töhfə verə bilər".

Hər halda, proseslərin hansı səpkidə inkişaf edəcəyi nazirlərin Vaşinqton görüşündən sonra daha dəqiq şəkildə bəlli olacaq. Amma yuxarıda qeyd olunduğu kimi, görüş ərəfəsində Ermənistan tərəfindən atılan addımlar sülh prosesində düşmənin maraqlı olmadığını aydın surətdə nümayiş etdirir. Ermənistan Müdafiə Nazirliyinin Dağlıq Qarabağda 10 min silahlı qüvvənin iştirakı ilə hərbi təlimlər keçirməsi də düşməni yalnız güc yolu ilə başa salmaq zərurətini artırır. Bu məqamda müdafiə naziri Zakir Həsənovun son açıqlamaları da təsadüfi xarakter daşımır. Onun sözlərinə görə, Azərbaycan Ermənistana yeni aprel dərsi verməyə hazırdır. O qeyd edib ki, 2016-cı ildə 3 gün ərzində Azərbaycan Ordusunun kiçik bir hissəsi bütün Ermənistan ordusunu darmadağın etdi. Nazir bildirib ki, Azərbaycan Ordusu bu qələbəni hər dəqiqə nümayiş etdirməyə hazırdır: "Müharibəni hərbiçilər başlamır, icra edir. Hələ ki, beynəlxalq vəziyyət müharibəyə imkan vermir, cənab prezident münaqişənin həlli ilə bağlı işlər aparır". Z.Həsənov vurğulayıb ki, Azərbaycan ordusu gecə-gündüz döyüş hazırlığı ilə məşğul olur: "Azərbaycan ordusu daim inkişaf edir, döyüş qabiliyyəti, psixoloji hazırlığı daim yüksəldir. Ermənistan isə bu sahədə çox zəifdr".

Nazir onu da deyib ki, Azərbaycan ordusunda aparılan islahatlar uğurla davam edir, ordu inkişaf edir: "Bununla bağlı sübutlar var. Orduya müasir silahlar alınır və bununla bağlı ictimaiyyət məlumatlandırılır". Müdafiə naziri vurğulayıb ki, ötən il Azərbaycan ordusunun paradında nümayiş olunan hərbi texnikaların 90 faizi yeni və müasir olub. Azərbaycan tərəfinin silahlar barədə bu xatırlatmasını isə erməni ekspertləri ciddi təşvişlə qarşılayır. Erməni hərbi ekspert Hayk Nahapetyan bu xüsusda qeyd edir: "Azərbaycan müntəzəm şəkildə Qarabağ probleminin hərbi yolla həll olunmasından danışır və çevrəni yavaş-yavaş daraldır". Onun sözlərinə görə, Azərbaycan tərəfindən həyata keçirilən hərbi təlimlərin sayı bu il 7-dən 13-ə qaldırılacaq: "Hərbi təlimlərin kəmiyyətinin artırılması şəxsi heyətin döyüş vəziyyətinə daha hazırlıqlı olması və mənəvi-psixoloji ruhun yüksəldilməsinə gətirib çıxarır. Azərbaycanın hakimiyyət nümayəndələri tez-tez Türkiyə rəhbərliyi və NATO ölkələri ilə görüşlər təşkil edir, fəaliyyətlərini intensivləşdirir. Azərbaycanın yeni silahlar alması və bunu erməni tərəfinə xatırlatması isə təsadüfi deyil. Bakı həmin silahlardan döyüş meydanında fəal şəkildə istifadə etməyə hazırlaşır". O iddia edib ki, yeni silahların tətbiqi ilə hərbi təlimlərin intensivliyinin artırılması 2016-cı ilin fevral-mart aylarından etibarən başlayıb: "Bundan sonra isə aprel hərbi əməliyyatları baş verdi. Deyəsən, Azərbaycan sözdən işə keçməyə hazırlaşır və genişmiqyaslı hərbi əməliyyatlara hazırlıq mərhələsi gedir".

Rus hərbi ekspert Aleksandr Xramçixin də Qarabağ münaqişəsi zonasında yaranmış vəziyyəti şərh edərkən danışıqların dalana dirənməsi fonunda yeni savaşı istisna etmir: "Dağlıq Qarabağ münaqişəsi zonasında baş verənlər klassik eskalasiyadır". Onun sözlərinə görə, münaqişə zonasında baş verən hadisələr, tərəflərin itki verməsi, daha ağır silahlanmalar, PUA və hərbi aviasiya vasitələrinin kəşfiyyat uçuşları klassik eskalasiyadır: "Ermənistan Müdafiə Nazirliyinin kəskin qərarları da həmin məntiqi çərçivələrdə izlənilməlidir. Bir daha təkrar edirəm, bu kimi fəaliyyət eskalasiyadır. Mən Azərbaycan tərəfinin qlobal mənada nə istədiyini başa düşürəm, Azərbaycan öz resurslarını daha sürətli templə nəzərə alaraq silahlanmasını artırır. Zaman Azərbaycanın lehinə işləyir. Vəziyyət Ermənistanın əleyhinə dəyişir".

Rus ekspertin fikrincə, Azərbaycan, həmçinin, Ermənistan daxilində və İrəvan-Sankt-Peterburq əlaqələrində genişlənən inkişafları da izləyir: "Bu mənada, Naxçıvanda keçirilən hərbi təlimlər heç də təsadüfi deyil. Belə ki, Azərbaycan-Türkiyə tandemi iki problemi həll edir. Bu problemlərdən biri ikitərəfli hərbi əməkdaşlığın dərinləşməsi, digəri isə real ssenarilərə hazırlaşmaq və lazım gələrsə oyuna daxil olmaqdır. Ermənistan Rusiyanın dəstəyini itirməsi fonunda bunlardan nəticə çıxarmalıdır".

Beləliklə, Ermənistanın nümayiş etdirdiyi məntiqdən uzaq fəaliyyət münaqişənin yenidən alovlanması ehtimalının çox yüksək olduğunu göstərir. Çünki Ermənistan rəhbərliyi gözəl anlayır ki, ölkəsilə Azərbaycan arasında bütün parametrlər üzrə, o cümlədən insan resursları və silah sistemləri üzrə nisbət birmənalı olaraq Bakının xeyrinədir və belə bir vəziyyətdə İrəvan üçün müharibə variantı ən təhlükəli seçimdir. Amma bu şəraitdə savaşa şərait yaradılması ermənilərin heç də ağıl və məntiqlə hərəkət etmədiyini göstərir. Baş verənlər Ermənistan daxilində ixtilafların daha sürətlə münaqişə zonasında əksini tapdığını göstərir. Amma bütün bunlar savaşı tezləşdirməkdən başqa da heç nəyə xidmət etmir. Hazırda Ermənistan üçün ən arzuolunmayan variant hərbi əməliyyatların bərpasıdır, bu isə eyni zamanda Azərbaycan üçün alternativsiz ən uyğun seçimə çevrilir. İrəvanın reallıqları görməyzliyi fonunda Azərbaycanın hərbi əməliyyatları bərpa etməkdən başqa yolu qalmır. Hər halda, hər iki ölkənin xarici işlər nazirlərinin ABŞ-da ikitərəfli görüşündə proseslərdə müsbət dinamika müşahidə edilməyəcəyi təqdirdə savaş qaçılmaz reallıq kimi çıxış edir.

Erməni ekspert Artur Sakunts isə qeyd edir ki, savaş başlasa, bu, Ermənistana heç bir fayda gətirməyəcək. Onun sözlərinə görə, qarşılıqlı məhvetmə həll yolları qəbuledilən deyil: "Rəsmi yanaşmaya müvafiq şəkildə cavab verməyən hərbi ritorikadan uzaq olmaq lazımdır. Yoxsa Bakı yeni silahlarını yenidən erməni əsgərləri üzərində sınayacaq. Bunun nəticələrini isə üç il əvvəl aprel döyüşlərində görmüşük".

Yaranmış durum bu qənaətə gəlməyə əsas verir ki, Ermənistan rəhbərliyi Qarabağ məsələsinin dinc həlli üçün yaxın tezlikdə əməli addım atmasa, düşmənin çox qorxuduğu savaşın başlanması qaçılmaz olacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyan təcavüzdən imtina etmədən bir neçə iri problemi həll etmək xülyasına düşüb - əhalinin azalması, xarici investisiyaların yoxluğu...

**Ermənistanda "məxməri inqilab"dan bir ildən çox vaxt ötsə də, ölkənin iqtisadi-maliyyə göstəricilərində, əhali artımında müsbət işarəli ciddi heç bir dəyişiklik qeydə alınmayıb. Yeni Baş nazir Nikol Paşinyanın dərin iqtisadi islahatlar barədə vədləri elə vəd olaraq qalır və getdikcə unudulmaqdadır. Onun bu yöndə vədlərinə artıq bir çoxları inanmır. İnqilabdan məyus olan əhalinin narazılığı artır.**



## *Arzuxan Əlizadə: "Qarabağ münaqişəsi həll olunmadan sözügedən sahələrdə Ermənistanda ciddi uğurlardan söhbət belə gedə bilməz"*

Paşinyanın özünü qərbyönlü kimi təqdim edərək Qərbin iri maliyyə mərkəzlərindən böyük sərmayələr qoparmaq, Ermənistana böyük investisiyalar cəlb etmək səyləri nəticə vermir. Hətta Avropa və ABŞ-dakı zəngin ermənilər də müharibə vəziyyətində olan Ermənistana maliyyə yatırımı etməyə həvəsli deyillər. Ermənistana sərmayə yatırmağı perspektivli hesab etmirlər. Bir müddət əvvəl xarici ölkə səfirləri ilə görüşündə Paşinyan əsas problemin xarici sərmayə ilə bağlı olduğunu etiraf etmişdi. Ermənistanın dövlət borcu da arta-arta gedir və sözügedən tendensiya bu il də artacaq. Belə ki, Ermənistan 2019-cu ildə 490 milyon dollar xarici kredit götürəcəyini bildirib. Bu kreditin təxminən 40 faizi Rusiyanın payına düşəcək.

Bütün bunlarla yanaşı, əhalinin Ermənistandan köçməsi və çətin demoqrafik vəziyyət son illər erməni cəmiyyətində müzakirə olunan əsas mövzulardan biridir. Görünən odur ki, sözügedən məsələ ilbəil ölkədə daha da kəskinləşir. Demoqrafik vəziyyətin təsvir olunduğu üç əsas sahədə ciddi problemlər var. Bunlar doğum səviyyəsinin azalması, əhalinin yaşlaşması və miqrasiyadır. Hər üç sahədə vəziyyət mənfidir. Xüsusən də ilbəil ölkədə doğulanların sayı azalır. Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə ölkədə 41763 uşaq doğulub. 2018-ci ildə isə Ermənistanda doğulan uşaqların sayı 36502 nəfər olub.

Ancaq, həmişə olduğu kimi, Paşinyan yenə də nikbin vədlər verir. O bəyan edib ki, görülən işlər sayəsində 20 il ərzində ölkə əhalisi 2 dəfə artacaq. İddia edib ki, islahatlar nəticəsində ölkə iqtisadiyyatına qoyulan xarici sərmayələrin həcmi artacaq.

O da məlumdur ki, uzun illərdir Dağlıq Qarabağ problemi həll olunmur. Ermənistanın təcavüzkarlığı üzündən münaqişənin həlli yubanır. Qarabağ problemi həll edilmədən Ermənistanda əhalinin 2 dəfə artması, ölkə iqtisadiyyatına xarici sərmayələrin cəlbi nə dərəcədə mümkündür?

*"Əhalinin guya iki dəfə artacağı ilə bağlı deyilənlər populizmdən başqa bir şey deyil"*

**Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Qarabağ münaqişəsi həll olunmadan sözügedən sahələrdə Ermənistanda ciddi uğurlardan söhbət belə gedə bilməz:** "Bu mümkün olan iş deyil. Bunu Paşinyanın özü də çox gözəl bilir. O bütün bunların fərqindədir və Qarabağ məsələsinin bütün bunlarda necə böyük rola malik olduğunu yaxşı bilir. Sadəcə, bunu etiraf etmək əvəzinə, populist vədlər verərək, nümayişkəranə şəkildə yalan danışır. Hansı xarici dövlət maraqlı olar ki, təbii sərvəti olmayan, strateji önəmə malik olmayan, Azərbaycanla müharibə şəraitində olan Ermənistana sərmayə qoysun? Xarici sərmayədarlar nə qədər erməni lobbisi ilə yaxın olsalar da, bu risqə getməzlər. Bu reallığı Paşinyan olmur, kim olur-olsun, dəyişə bilməz. Bunun dəyişməsi üçün Ermənistan təcavüzə son qoymalıdır, sərhədlər, kommunukasiya xətləri açılmalıdır. Ondan sonra ölkədə sərmayə mühiti yaranmalıdır. Əhalinin guya iki dəfə artacağı ilə bağlı deyilənlər populizmdən başqa bir şey deyil. Bu, Paşinyanın növbəti şou xarakterli açıqlamasıdır. Ermənistandan köçün dayanması, əhalinin artması Qarabağ məsələsinin həllindən keçir. Nə qədər ki, münaqişə öz həllini tapmayıb, həmin problemlər həll olunmayacaq".

***Vidadi ORDAHALLI***

# Paşinyan sülh danışıqları ilə bağlı növbəti təxribatçı fikirlər söylədi, həm də telemüsahibədə...

**"Qarabağın azərbaycanlı icması artıq Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində iştirak edir". Bu fikirləri Ermənistanın Baş naziri Nikol Paşinyan "Şant" telekanalına müsahibəsində bildirib. O, telekanala müsahibəsində bununla bağlı bir sıra təxribatçı fikirlər səsləndirib: "Mən həmişə demişəm ki, Ermənistan adından danışıqlar apara bilərəm, "Dağlıq Qarabağ Respublikası"nın adından danışıqlar apara bilmərəm.**



## *Məhəmməd Əsədullazadə: "Paşinyanın bu çıxışı danışıqlardan yayınmaq və Ermənistanın işğalçı siyasətini gizlətmək məqsədi daşıyır"*

Çünki mən nə oranın "prezidenti"yəm, nə də Qarabağ xalqı tərəfindən seçilmişəm. Qarabağı onun seçdiyi şəxs təmsil etməlidir". Qarabağın azərbaycanlı icmasına gəldikdə isə, Paşinyan qeyd edib ki, onu artıq danışıqlar prosesində Azərbaycan prezidenti təmsil edir: "Onların hamısı istisnasız Azərbaycan vətəndaşlarıdır. Onlar seçkilərdə iştirak edirlər. Bu gün onlar artıq danışıqlar masasında təmsil olunublar, çünki İlham Əliyevi prezident seçməklə onu danışıqlar prosesində səlahiyyətləndiriblər". Qeyd edək ki, daha əvvəl ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri regiona səfərləri zamanı mayın 30-u Qarabağın azərbaycanlı icmasının sədri ilə görüşüblər. Göründüyü kimi, Paşinyanın bu yöndə təxribatları səngimək bilmir. O, separatçı qurumun danışıqlarda tərəf olmasını istəyirdi, amma alınmadı. Ancaq buna baxmayaraq, yenə də bu fikirlərdən əl çəkməyərək növbəti təxribatçı açıqlamalarla çıxış edir. Bu baxımdan Paşinyanın Qarabağ danışıqları ilə bağlı son təxribatçı fikirlərini ekspertlər necə dəyərləndirir?

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, bütün bunlar onu göstərir ki, Paşinyan münaqişənin həllində kompromislərdə maraqlı deyil: "Ermənistanın Baş naziri Nikol Paşinyanın apardığı siyasət ölkəsini müharibə fəlakətinə sürəkləyir. O çox gözəl bilir ki, Qarabağdakı azərbaycanlı və erməni icması Azərbaycan rəhbərliyinə tabe olmalıdır. Burada işğal faktoru var. Yəni Ermənistan Azərbaycan ərazilərini işğal edərək, orada separatçı qurum yaradıb. Paşinyanın bu çıxışı danışıqlardan yayınmaq və Ermənistanın işğalçı siyasətini gizlətmək məqsədi daşıyır. Hesab edirəm ki, bu yanaşmanın ortaya qoyulması sülh imkanlarını və danışıqları mənasız məcraya yönəldir.

*"Hesab edirəm ki, bu yanaşmanın ortaya qoyulması sülh imkanlarını və danışıqları mənasız məcraya yönəldir"*

Paşinyan, görünür, Qarabağdakı separatçılardan qorxur və münaqişənin həllində vasitəçilikdən yayınmağa çalışır. Hesab edirəm ki, Azərbaycanın qəti mövqeyi razılaşdırılmış yenilənmiş Madrid prinsipləri üzrə danışıqların aparılmasına gətirməlidir. Ümumiyyətlə, görünən odur ki, Paşinyan danışıqlara hazır deyil. Çünki danışıqlar sülh prosesinə gətirməli, işğal faktoru aradan qalxmalıdır. Amma milliyyətçi və şovinist olan inqilab hakimiyyətinin nümayəndələri bunda maraqlı deyil. Onun bu kimi qeyri-adekvat açıqlamaları davam edəcək. Rəsmi Bakı üç ay ərzində mövqeyini konkretləşdirməli, Minsk Qrupu həmsədrləri ilə məsələnin təcili həllini qabartmalıdır. Belə olmadıqda hərbi təzyiq vasitələrinə keçəcəyini bəyan etməlidir. Paşinyan çox ikiüzlü və regionda qeyri-stabil hökumət rəhbəridir".

***Vidadi ORDAHALLI***

# Dünya mediası ABŞ-ın İranla müharibə qərarı verdiyini konkret yazdı...

**Bir neçə gün əvvəl Panama qeydiyyatlı "Kokuka Courageos" və Marşal adaları bayrağı altındakı "Front Altair" tankerlərinin Hörmüz boğazından keçdikdən sonra Oman körfəzinin beynəlxalq sularında hücuma məruz qalmasının ABŞ və İran arasında savaşa rəvac verəcəyinə dair proqnozlar özünü doğruldur. ABŞ bu hücumda İranı ittiham etsə də, İran xarici işlər naziri Məhəmməd Cavad Zərif bu ittihamların əsassız olduğunu bildirib.**

ABŞ dövlət katibi Maykl Pompeo isə əks mövqedən çıxış edərək, yaranmış vəziyyətdə müharibə olmasını istisna etmir. Onun sözlərinə görə, ABŞ regionda İrana müqavimət göstərmək üçün bütün variantları, o cümlədən hərb yolunu nəzərdən keçirir. Artıq Vaşinqton insidentlə əlaqədar regiona "Patriot" kompleksləri, qırıcılar və döyüş gəmiləri göndərməyi planlaşdırıb. "The Jerusalem Post" qəzeti isə BMT-dəki diplomatik mənbələrə istinadən məlumat yayıb ki, ABŞ administrasiyası həm də İranda nüvə proqramı ilə əlaqəli bir obyektin hava zərbələri ilə vurulması ideyasını müzakirə edir: "Söhbət kütləvi bombardmandan gedir, ancaq o, konkret bir hədəflə məhdudlaşdırılacaq". Nəşrin məlumatına görə, bu məsələ ətrafında gedən danışıqlarda ölkənin yüksək rütbəli hərbi simaları, Pentaqonun nümayəndələri və prezident Donald Trampın məsləhətçiləri iştirak edir. Bildirilir ki, bu qərar İranın uran istehsalı ilə bağlı son açıqlamasından qabaq Ağ Evdə müzakirə edilib. Qəzet yazır ki, prezident Tramp özü də İran məsələsində istənilən hərbi qərara həvəssiz yanaşır, ancaq eyni zamanda dövlət katibi Mayk Pompeonun məsləhətləri əsasında addım ata da bilər.

İsrailin baş naziri Benyamin Netanyahu isə həm nüvə proqramı, həm də Oman körfəzində neft tankerlərinə hücumlara görə İranı ittiham edib və dünya cəmiyyətini Tehrana qarşı savaşa çağırıb. Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd Bin Salman da eyni mövqedən çıxş edərək, Oman körfəzində neft tankerlərinə hücumlarda İranı ittiham edib. Böyük Britaniyanın Xarici İşlər Nazirliyi də Oman körfəzində tankerlərə hücumda İran İslam İnqilabı Keşikçiləri Korpusunu (SEPAH) ittiham edib. Almaniyanın "Die Welt" nəşri yazır ki, artıq ABŞ İranla savaşa qərar verib və ətrafına müttəfiqlər yığır: "ABŞ dövlət katibi günahkarı birmənalı şəkildə göstərib. Pompeo mətbuat konfransında bildirib: "Birləşmiş Ştatların dəyərləndirməsinə görə, bu gün Oman körfəzində baş vermiş hücumlarda İran məsuliyyət daşıyır". Belə dəyərləndirmələr kəşfiyyat məlumatları, istifadə edilən silah, bu növ əməliyyatları aparmaq üçün gərəkli təcrübənin səviyyəsi və bölgədə heç bir qruplaşmanın bu səviyyədə mürəkkəb əməliyyatı həyata keçirmək üçün resurs və vərdişlərə malik olmadığı cəhətə əsaslanır. Amma bu nəyi bildirir? ABŞ İran İslam Respublikasına qarşı savaş aparmağa başlayacaq".

ABŞ kəşfiyyatına yaxınlığı ilə tanınan "Stratfor" mərkəzi isə bildirir: "İranda da, Birləşmiş Ştatlarda da sərt xətt izləyən və qarşıdurmaya girməyə hazır olan nüfuzlu qrupların varlığı böyük hərbi münaqişəyə yol açır. İrandakı güc tərtibinə və onun münaqişəli durumlardakı davranışına, hər iki ölkənin hərbi hazırlıqları sürətləndirməsinə əsasən yanılma və gərginlik risqi yüksək qalacaq. Bu və ya başqa insident halında gərginlyi azaltmaq tələb olunarkən mühüm rabitə kanallarının yoxluğu da hər iki ölkənin imkanlarını məhdudlaşdırır.

Birləşmiş Ştatlar Fars körfəzinə əlavə güc göndərir, eyni zamanda İran öz ordusunu hazırlayır və səfərbər edir; hər iki ölkənin fəaliyyəti yekun halında savaş ehtimalını xeyli yüksəldir. Vəziyyət bununla ağırlaşır ki, Ağ Evdəki qruplaşmalardan biri milli təhlükəsizlik üzrə davakar müşavir Con Boltonun simasında İranla münaqişə başlamağa prezident administrasiyasında başqalarından daha çox can atır. Əlbəttə, İran tərəfdə də qaynar başlar, savaş ideoloqları var, özəlliklə İslam İnqilabı Keşikçiləri Korpusunda (İİKK). İndi daha əhətəli münaqişə tam gerçək görünür ki, bu da ölkələrin bir-birinə qarşılıqlı ədavəti və inamsızlığı, münaqişəli durumların sürətli həlli üçün rabitə kanalının yoxluğu, əsas stimulu "dəmiri isti-isti döyərlər" olan İran silahlı güclərinin məqsədi ilə şərtlənir.




ABŞ silahlı qüvvələrinin ənənəvi orduları dəfələrlə üstələdiyi haqda özünə hesabat verən Tehran asimmetrik savaş aparmağa on illər boyu yatırım qoyub, yəni oyuncaq qoşunlar, ballistik raketlər, dəniz minaları, ABŞ-a, Fars körfəzi bölgəsində önəmli energetika strukturlarına və bölgənin başqa əsas strateji obyektlərinə effektli zərbə vurmaq üçün sürətli döyüş katerləri. Amma güman etmirik ki, bu qüvvə və taktika İranın ümumi nisbi zəifliyini tarazlaşdırır; doğrudan da Tehran çox gözəl anlayır ki, bu aktivlərdən çoxu ABŞ-ın zərbələri üçün son dərəcə dişbatandır, çünki bunlar limanlara, qarnizonlara və ya bazalara bağlı qalır.

Deməli, İranın istifadə edə biləcəyi Hörmüz boğazını bağlamaq təhdidini həyata keçirmək xeyli dərəcədə mina düzən gəmilər, raket və torpedo katerləri, silahlanmış sürətli katerlər və gəmiyə qarşı sahilyanı qanadlı raketlər barateyasını birləşdirən döyüş vasitələrindən asılıdır. Bu aktivlərdən çoxu hələlik öz liman və bazalarında olunca ABŞ-ın yüksəkdəqiqlikli zərbələrinə məruz qalacağı az deyilmiş, hətta bunlar münaqişə başlanana qədər həmləyə etməyə nail ola bilsə də, ABŞ və ya müttəfiqlərinin aviasiyası tərəfindən məhv edilmək təhlükəsi altındadır. Başqa sözlə, İranın olduqca kiçik imkanlar pəncərəsi var ki, özünün bütün minalarını düzsün və Birləşmiş Ştatlar və müttəfiqləri bu vəzifəni xeyli çətinləşdirənə qədər Hörmüz boğazı bölgəsində mümkün qədər böyük ziyan vursun.

Söhbət İranın ABŞ-ın bölgədəki bazalarına və energetika infrastrukturuna zərbə vurmaq bacarığından gedərkən eyni prinsip onun ballistik raketlər cəbbəxanasına da tətbiq edilə bilər. Tehran münaqişənin gedişində bu raketləri vaxtında buraxmağa nail olmasa, Vaşinqton onların çoxunu ölümsaçan yükü çatdırmamışdan qabaq məhv edə bilər. Beləliklə, İranın qarşısında gerçək "istifadə et, ya da itirərsən" dilemması durur, çünki onu hücuma təkcə cəld reaksiya verməyə deyil, həm də atəş gücünə görə onu xeyli üstələyən rəqiblərinin aktivlərinə qaçılmaz ziyan vurmazdan əvvəl mümkün qədər böyük ziyan vurmaq üçün bir sıra qabaqlayıcı tədbirlər görməyə tutarlı səbəbləri var. İzah edək: Amerikanın hətta çoxaylıq hücumları da İranın tam tərki-silahına gətirməyəcək, lakin Tehran asimmetrik aktivləri, xüsusən də raket və hərbi-dəniz qüvvələrini işə salmağa nə qədər gec nail olarsa, İslam Respublikası öz silahlarından faydalanmazdan qabaq Birləşmiş Ştatların bu silahları məhv etmək risqi bir o qədər yüksəkdir. ABŞ - İran qarşıdurmasını kəskinləşdirə biləsi başqa bir amil iki ölkənin gücləri arasında birbaşa effektli əlaqənin yoxluğudur. "Qaynar xətt"in və gərginliyi əlüstü yumşaltmağın yoxlanmış üsullarının yoxluğu daha böyük inamsızlığa və rəqibin niyyətini anlamamağa səbəb ola bilər. Dialoq üçün kanalın yoxluğu hətta ən yüksək nazirliklər səviyyəsində də müşahidə olunur. İran xarici işlər naziri Cavad Zərif böhranın qabağını almaq üçün İran və Birləşmiş Ştatların tez əlaqə təşkil edə bilib-bilməyəcəyi haqda sualı cavablandırarkən deyib ki, ABŞ-ın keçmiş dövlət katibi Con Kerri ilə sürətli danışıqlardan fərqli olaraq, indiki dövlət katibi Mayk Pompeo ilə heç vaxt birbaşa təmasda olmayıb. Zərif hətta deyib ki, ədavətli münasibətlər üzündən dövlət katibinin hər hansı zənginə cavab verməyi özünə borc saymır.

Əlbəttə, məsələ gərginliyin yayılmasına qədər gedib çıxsa, İran və Amerika məmurları son nəticədə bir-birilə rabitə qurmağa nail olacaqlar - təbii, bunu istəsələr - amma hər şeyi saatların deyil, dəqiqələrin həll etdiyi bir durumda kommunikasiyanın və yaxud münaqişələrin həlli kanalının yoxluğu deeskalasiya üzrə sürətli səylərə əngəl olacaq. Əslində, Amerika və İran məmurları danışıqlara başlayana qədər hücum və əks-hücum silsiləsi elə bir miqyas alar ki, bir neçə danışıq az ola bilər. Yaranmış vəziyyət güman etməyə əsas verir ki, yeganə yanlışlıq söndürülməsi hətta hər iki paytaxtdakı sağlam düşüncəli liderlərə də çətin olacaq yanğının ilk qığılcımı ola bilər".

***Nahid SALAYEV***

**Paytaxtda köhnə binaların əksəriyyətində lift sistemi yararsız vəziyyətdədir. Deməк olar ki, mütəmadi olaraq insanların liftdə qalması, bəzən isə lift kanatının qırılması, sakinlərin liftin şaxtasına düşməsi haqqında xəbərlər eşidirik.**

# Bakıda 4 mindən çox yararsız lift - Prezidentin fevral sərəncamı necə icra olunur...



*"...hələ də istismara yararsız liftlər yeniləri ilə əvəz olunmayıb"*

***İlqar Hüseynli:** "Lift təsərrüfatının yenilənməsi üçün tender elan olunmalıdır"*

Prezident İlham Əliyev bu ilin fevralında Azərbaycanın 12 şəhər və rayonunda 237 çoxmənzilli binanın lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə 40 milyon manat vəsaitin ayrılması üçün sərəncam imzalayıb. Lakin bu sahədə vəziyyət hələ də istənilən səviyyədə deyil.

Açıqlanan statistik rəqəmlərə əsasən, 2019-cu il aprel ayının əvvəlinə olan məlumatlara görə, respublika üzrə 20129, Bakı şəhəri üzrə 17472 lift istismardadır. İstehsalçı zavod tərəfindən müəyyən edilən 25 illik istismar müddətini bitirən liftlərin sayı respublika üzrə 4419, Bakı üzrə 4194 ədəddir. Liftlərin respublika üzrə 614 ədədi, Bakı üzrə isə 5305 ədədi yerli icra hakimiyyətlərinin balansındadır. Bunlardan da istehsalçı zavod tərəfindən təyin olunmuş istismar müddətini keçənlərin sayı respublika üzrə 3230, Bakı üzrə isə 3102 ədəddir.

Qeyd edək ki, Sovetlər dövründə kooperativ yaşayış binalarında olan liftlərin sayı ölkə üzrə 983, Bakı üzrə 970-dir. Bu cür liftlərdən 981-i respublika üzrə, 968-i Bakı üzrə istismar müddətini tamamlayıb. Mənzil-tikinti kooperativlərinə aid yaşayış binalarında olan liftlərin sayı respublika üzrə 10876, Bakı üzrə isə 9896-dır.

Yeni tikililərdəki liftlərdən yalnız Bakıda olan 10 ədədi istehsalçı zavod tərəfindən müəyyən edilmiş 25 il müddətini tamamlayıb. Dövlət müəssisə və digər təşkilatların balansında olan liftlərə gəldikdə isə, respublika üzrə onların sayı 2096-dır, 208-i istismar müddətini başa vurub. Bakı şəhəri üzrə isə say 1301 ədəddir, onlardan 124-ü istismar müddətini tamamlayıb.

Onu da bildirək ki, respublika üzrə Səhiyyə Nazirliyinin balansında 168 lift var, onlardan 18-i istismar müddətini tamamlayıb. Təhsil Nazirlyiinin balansında olan 60 liftdən isə 25-i istehsalçı zavodun müəyyən etdiyi 25 il müddətindən artıq işləyir. Müdafiə Sənayesi Nazirliyinin balansında olan 37 liftdən isə 31-i istismar müddətini keçib.

Cari ilin əvvəlində Prezident İ.Əliyevin lift təsərrüfatının inkişafı haqqında sərəncam imzalamasına baxmayaraq, hələ də paytaxt ərazisində 4000-dən çox liftin istismara yararsız vəziyyətdə olması təəssüf doğurur.

**Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bəzi sahələrin inkişaf etməsi ilə bağlı Prezident tərəfindən sərəncam və göstərişlər verilməsinə baxmayaraq, həmin sektorda geriləmə müşahidə olunur:** "Lift təsərrüfatında yaşanan problemlər hər kəsə bəllidir. Liftlərin istismara yararsız vəziyyətdə olması səbəbindən dəfələrlə qəza hadisələri baş verib. Nəticədə bir çox şəxs ya istismara yararsız liftin qurbanı olub, ya da müəyyən dərəcədə zədə alıb. Bunun da səbəbi liftlərin köhnə və istismara yararsız vəziyyətdə olmasıdır. Məlumdur ki, lift təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı Prezident İlham Əliyev müəyyən məbləğdə vəsait ayırıb. Bunun üzərindən 5 aya yaxın vaxt keçsə də, lift təsərrüfatında vəziyyət eyni olaraq qalır. Bəziləri istəyirlər ki, köhnə liftlər yerli istehsal hesabına yeniləri ilə əvəz olunsun. Ancaq nəzərə almaq lazımdır ki, daxili istehsalın gücü çatmır ki, istismara yararsız liftləri yeniləri ilə əvəz etsin. Bu səbəbdən də ya lift, ya da onun avadanlıqları xarici ölkələrdən alınıb ölkəyə gətirilməlidir.

Yaxşı olar ki, liftlərin alışı ilə bağlı tender elan olunsun. Ukrayna, Gürcüstan və Rusiyadan liftlərin ölkəyə gətirilməsi mexanizminin tezləşdirilməsi istiqamətində müəyyən işlər görülməlidir".

***Günel CƏLİLOVA***

**Son illər pasientlərin hüquqlarının pozulması halları çoxalıb. Hətta vəziyyət o həddə çatıb ki, həkimə müraciət edən xəstəyə yanlış diaqnoz qoyulması və səhv müalicə aparılması səbəbindən onun səhhətində ciddi problemlər yaranır.**

# Xəstələrin hüquqlarının müdafiəsi ilə bağlı Parlament - Səhiyyə komissiyası...



*"Vətəndaşların sağlamlığına zərər vurulduqda təqsirkar şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada və həcmdə ziyanı ödəməyə borcludurlar"*

***Adil Qeybulla:** "Vurulan ziyanın ödənilməsi tibb və əczaçılıq işçilərini qanunvericilikdə nəzərdə tutulmuş intizam, inzibati, yaxud cinayət məsuliyyətindən azad etmir"*

Pasientlərin hüquqlarının etibarlı şəkildə müdafiəsi ilə bağlı hüquqi bazanın olmaması, xəstələrin səhv diaqnozlar və müalicələr səbəbindən həyat və sağlamlıqlarını itirməsi hallarının artması həkimlərə və səhiyyə xidmətinə vətəndaşların etibarsızlığını, inamsızlığını yaradır. Bu səbəbdən də vətəndaşlarımız müalicə üçün qonşu dövlətlərə üz tuturlar.

Məlum olduğu kimi, Azərbaycanda pasientlərin sağlamlığına vurulan zərərin ödənilməsi üzrə komissiya yaradılacaq. Bu, yeni hazırlanan "Pasientin hüquqları haqqında" qanun layihəsində əksini tapıb.

Qanun layihəsinin 29-cu (Pasientin sağlamlığına vurulmuş zərərin ödənilməsi) maddəsində qeyd olunub ki, pasientə tibbi yardımın göstərilməsi zamanı sağlamlığına ziyan yetirildiyi hallarda zərərin ödənilməsi hüququ var. Pasientin hüquqlarının pozulması nəticəsində sağlamlığına dəymiş zərər müəyyən edilmiş qaydada ödənilməlidir.

Pasientin sağlamlığına vurulmuş zərərə görə mülki hüquqi məsuliyyətin şərtləri və qaydaları, habelə kompensasiyaların ödənilməsi qaydaları qanunvericiliklə müəyyənləşdirilir.

Pasientlərə qarşı hüquqazidd və sağlamlığa zərər yetirmiş hərəkətlərin törədilməsi faktı Pasientlərin sağlamlığına vurulmuş zərərin müəyyən edilməsi üzrə komissiya tərəfindən və (və ya) məhkəmə qaydasında müəyyən edilə bilər.

**Pasientlərin sağlamlığına vurulan zərərin ödənilməsi üçün komissiya yaradılmasının əhəmiyyəti barəsində danışan tibbi ekspert Adil Qeybulla bizimlə söhbətində bildirdi ki, Azərbaycan qanunvericiliyinə əsasən, əhalinin sağlamlıq hüquqları "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunla qorunur.**

Onun sözlərinə görə, qanunda əhalinin sağlamlığının qorunması sahəsində insan və vətəndaş hüquqlarına dövlət təminatı və bu təminatla bağlı hüquqi və fiziki şəxslərin məsuliyyəti, tibbi-sosial yardımın hamı üçün mümkünlüyü, sağlamlığın qorunması sahəsində profilaktik tədbirlərin həyata keçirilməsi və s. məsələlər öz əksini tapıb. Qanunda pasientlərin hüquqları ilə bağlı xüsusi maddə yer alıb: "Həmin maddədə qeyd olunur ki, pasientin təxirəsalınmaz tibbi yardım göstərilməsi halları istisna olmaqla, öz razılığı ilə həkimi və müalicə-profilaktika müəssisəsini seçmək, sanitariya-gigiyena tələblərinə uyğun olan şəraitdə müayinə və müalicə olunmaq, stasionar müalicə olunduğu tibb müəssisəsinin mütəxəssislərinin iştirakı ilə konsilium və məsləhətləşmələr aparılmasını tələb etmək, tibbi müdaxiləyə şifahi və ya yazılı könüllü razılıq vermək və s. hüquqları var".

Həmsöhbətimizin sözlərinə görə, pasientin hüquqları pozulduqda, o, müalicə olunduğu tibb müəssisəsinin rəhbərliyinə, Səhiyyə Nazirliyinə və ya məhkəməyə müraciət edə bilər. Lakin təcrübədə bu müraciətlər əksər hallarda müsbət nəticələr vermir. Bu səbəbdən də pasientlərin hüquqlarının qorunması ilə bağlı xüsusi qanun hazırlanır. Qanun layihəsinə əsasən, pasientlərin hüquqlarını qoruyan komissiya mövcud olacaq: "Vətəndaşların sağlamlığına zərər vurulduqda təqsirkar şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada və həcmdə ziyanı ödəməyə borcludurlar. Vurulan ziyanın ödənilməsi isə tibb və əczaçılıq işçilərini qanunvericilikdə nəzərdə tutulmuş intizam, inzibati, yaxud cinayət məsuliyyətindən azad etmir".

***Günel CƏLİLOVA***

# Yunus Oğuzun Daşkənddə iki triumfu - "Ovçu" romanı təqdim edildi, müəllif "Turan" Akademiyasının akademiki seçildi...

**Daşkənddə yazıçı Yunus Oğuzun "Ovçu" romanının təqdimatı ilə Özbəkistanda keçirilən "Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri"nə yekun vurulub. AZƏRTAC xəbər verir ki, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı ilə baş tutan tədbirdə elm, mədəniyyət və incəsənət xadimləri, şair və yazıçılar, soydaşlarımız, jurnalistlər iştirak ediblər.**



AMM-in direktoru Samir Abbasov qonaqları salamlayaraq dostluq və əməkdaşlığın möhkəmləndirilməsi, milli mədəniyyətimizin tanıdılması və təbliğinə yönəlmiş bu cür tədbirlərin əhəmiyyətindən danışıb. O, Mədəniyyət Mərkəzinin layihəsi ilə mədəniyyət və ədəbiyyat günləri çərçivəsində 2 konsert proqramının, dəb sərgisinin, 2 kitab təqdimatının keçirildiyini qeyd edib. S.Abbasov Daşkənddəki aparıcı kitabxanalara ölkəmizə dair zəngin kitab kolleksiyasının bağışlandığını, keçirilən tədbirlərdə "Azərbaycan, sənsən mənim ülviyyətim" adlı kitab, milli mədəniyyətimizi özündə əks etdirən suvenirlər, maddi mədəniyyət nümunələrinin sərgisinin keçirildiyini qeyd edib.

O, Yunus Oğuzun yaradıcılığı haqqında danışıb, 2016-cı ilin aprel hadisələrinə həsr olunan və Daşkənddə özbək dilində çap edilən "Ovçu" romanını yüksək qiymətləndirib. Samir Abbasov aprel zəfərinin qəhrəmanları, xüsusən polkovnik Murad Mirzəyev və onun döyüş yoldaşlarının həyat yolundan bəhs edən əsərin xalqımızın qəhrəmanlıq hislərinin yüksəldilməsinə öz töhfəsini verdiyini bildirib.

Çıxış edənlər Özbəkistanda keçirilən "Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri"ni yüksək qiymətləndirib, məhz Mədəniyyət Mərkəzinin layihəsi ilə həm milli mədəniyyətimizə, həm də ədəbiyyatımıza dair çoxsaylı tədbir, layihələr vasitəsilə geniş məlumatlandırma və təbliğat işlərinin həyata keçirildiyini vurğulayıblar.

Filoloq-alim Nurbay Cabbarov Azərbaycan-Özbəkistan ədəbi əlaqələri haqqında danışıb, müasir dövrdə də bu əlaqələrin yüksək səviyyədə olduğunu söyləyib. O, Yunus Oğuzun əsərləri haqqında söhbət açıb, özbək dilində də çap edilən "Əmir Teymur" əsərinə yüksək qiymət verib.

Kitabın tərcüməçisi, filoloq-alim Gülbahar Aşurova qəhrəmanlıq və vətənpərvərlik mövzusunda yazılan "Ovçu" romanında yaradılan obrazların gənclərimiz üçün bir nümunə olduğunu qeyd edib, kitabın təbliğinin gənclərin vətənpərvərlik ruhunun inkişafında müsbət rol oynayacağını söyləyib.

Babaxan Şərif, Bürabiya Racabova, Xaydarbek Bababekov Özbəkistanla Azərbaycan arasında ədəbi əlaqələr, tarixi dostluq münasibətləri haqqında məlumat verib, belə əsərlərin yayılmasına və təbliğinə geniş ehtiyac olduğunu qeyd ediblər.

Yunus Oğuz çıxışında "Ovçu" romanı haqqında fikirlərini bölüşüb, əsərin yaranması, onun yazılması ilə bağlı xatirələrini danışıb, romanın müasir tariximizə bağlı yazdığı ilk əsər olduğunu qeyd edib. O, gələcəkdə də torpaqlarımızın azadlığı, Qarabağ uğrunda savaşan əsgər və zabitlərimizin şərəfli döyüş yolu haqqında əsərlər yazmaq niyyətində olduğunu qeyd edib.

Sonda türk tarixinin araşdırılması sahəsindəki xidmətlərinə görə Yunus Oğuza Özbəkistanın "Turan" Akademiyasının akademiki seçilməsi ilə bağlı vəsiqə və döş nişanı təqdim olunub.

Sonra "Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri"nin bağlanışı münasibətilə bədii proqram təqdim olunub.

**Konsertdə AMM-nin nəzdindəki "Azərbaycan qızları" rəqs ansamblının üzvləri, həmçinin, özbək və tacik xalqlarının nümayəndələri öz xalqlarının rəqslərini və musiqi nömrələri ifa ediblər.**

***Qulu Kəngərli***
***AZƏRTAC-ın xüsusi müxbiri Daşkənd***

# Azərbaycanda çox imkanlı adamların evlərdə şəxsi muzeyləri - qiymətli eksponatların statusu necə qanuniləşdirilə bilər...

**İnsanlar var ki, qədim əşyalar, qiymətli eksponatlar toplamaq onların hobbisinə çevrilib. Xarici ölkələrdə olduğu kimi, Azərbaycanda da kolleksiyaçılar var. Xaricilərdən fərqli olaraq, bizim kolleksiyaçılar kolleksiyalarında olan milyonlarla qiymətə malik əşyaları, eksponatları sərgiləyə bilmirlər.**



## ***Fariz Xəlilli:*** *"Şəxsi kolleksiyaların leqallaşdırılmasına və özəl muzeylərin yaradılmasına ehtiyac var"*

Onların kolleksiyalarında yer alan materiallar həddindən artıq bahalıdır. Bu gün Azərbaycanda belə insanlar çox olmasa da, az da deyil. Bu adamlar topladıqları materiallar hesabına evlərində muzey yaradıblar. Lakin qeyd etdiyimiz kimi, bu muzeylərin seyirçiləri yoxdur.

İmkanlı şəxslərə məxsus olan ev muzeylərini yalnız ailə üzvləri və onlara yaxın olanlar görə bilirlər. Hətta məlumatlara görə, bu kolleksiyalarda qədim dövrlərdən tutmuş, müasir dövr incəsənət nümunələrinə qədər çox qiymətli eksponatlar toplanıb.

Məlum olduğu kimi, xaricdəki evlərdə yaradılan muzeylər, kolleksiyalar aidiyyəti qurumlar tərəfindən qediyyata alınır və hətta onlara öz şəxsi kolleksiyalarında olan eksponatları istənilən ölkədə, istənilən muzeydə sərgiləmək üçün icazə verilir. Bildiyimiz kimi, dünyanın nüfuzlu kolleksiyaçıları öz şəxsi kolleksiyalarında olan eksponatların müxtəlif ölkələrdə sərgisini təşkil edərək külli məbləğdə vəsait əldə edirlər. Azərbaycanda isə kolleksiyaçılar, nədənsə, bu nümunələri evlərində yaratdıqları muzeylərdən kənara çıxarmağa tərəddüd edirlər.

Ekspertlər bildirirlər ki, bunun səbəbi Azərbaycanın müvafiq qanunvericiliyində bununla bağlı bəndin olmamasıdır. Yəni kolleksiyaçıların yaratdıqları kolleksiyanın fəaliyyəti qanuniləşməlidir ki, onlar öz kolleksiyalarındakı eksponatları sərgiləyə bilsinlər. Bu gün turistlərin, xarici qonaqların şəxsi kolleksiyalara böyük maraq göstərdiyini deyən ekspertlər hesab edirlər ki, ölkəmizdə də yerli kolleksiyaçılara qanunla şərait yaradılmalıdır.

**MİRAS-Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru, maddi irs üzrə mütəxəssis Fariz Xəlilli "Bakı-Xəbər"ə bildirdi ki, o özü də kifayət qədər kolleksiya toplayan şəxs tanıyır.** "Bu insanlar müxtəlif materiallar toplayırlar. Buraya müxtəlif qədim əlyazmalar, pullar,

## *"Qanunvericilikdə bu məsələ ilə bağlı boşluqlar var"*

etnoqrafik məhsullar, geyimlər, mis və saxsı qablar daxildir. Yəni bu və digər nümunələri kolleksiya şəklində toplayanlar var. Mən onların çoxunu tanıyıram. Ancaq bu kolleksiya onların evlərində və ya hansısa obyektlərində qalır, heç yerə çıxarılmır. Sizin toxunduğunuz məsələ həm aktualdır, həm də çox əhəmiyyətlidir. Çünki o kolleksiyalarda elə materiallar var ki, yerli kolleksiyaçılar onları almasaydılar, həmin materiallar ölkədən kənara çıxa bilərdi. Onlar, bir növ, bu materialları almaqla onların ölkədən kənara çıxmasının, qaçaqmalçıların əlinə keçməsinin qarşısını alıblar. Bilirsiniz ki, dünyada ən geniş yayılan qaçaqmalçılıq növlərindən biri tarixi abidələrin qaçaqmalçılığıdır. Onların bu qaçaqmalçılığın qarşısını alması həm də vətəndaşlıq borcundan irəli gəlir. Bu mənada bu doğrudan da çox əhəmiyyətli məsələdir. Düşünürəm ki, dövlət qurumları bu kolleksiyaların leqallaşdırılmasına çalışmalıdırlar. Yəni kim kolleksiya ilə məşğul olmaq istəyirsə, yaxud olursa, dövlətə məlumat verməli və qeydiyyatdan keçməlidir. Bu kolleksiyaları şəxsi muzeylər səviyyəsinə qaldırmaq lazımdır. Çünki bu adamların bir çoxu imkanlı şəxslərdir və onlar öz şəxsi muzeylərini yarada bilərlər. Qanunvericilikdə bu məsələ ilə bağlı boşluqlar var. Özəl muzeylərin yaradılması sahəsində boşluqlar mövcuddur. Düşünürəm ki, özəl muzeylərin yaradılması muzeylər baxımından dövlətin yükünü də azaldar. Biz də dünyadan ölkəmizə gələn turistlərə daha çox məhsul təqdim etmiş olarıq. Bu mənada, şəxsi kolleksiyaların leqallaşdırılmasına və özəl muzeylərin yaradılmasına ehtiyac var. Onlara dövlət dəstəyinin verilməsi doğru olardı. Mən bir mütəxəssis kimi bunu dəstəkləyirəm".

F.Xəlillinin sözlərinə görə, kolleksiyaçı vəfat edibsə, onların kolleksiyasına aid eksponatları muzeylərə hədiyyə etmək də mümkündür.

***İradə SARIYEVA***

# Dilimizin internet bazası bərbad gündədir - istənilən mətni internet-poliqlotun tərcüməsinə verin və baxın...

## Buludxan Xəlilov: "Təəssüflər olsun ki, bu sahədə heç bir iş görülmür"

**Son zamanlar Azərbaycan dilinin işləkliyinin təmin olunması ən vacib məsələlərdən biri kimi gündəmdədir. Dilimizin işləkliyi müəyyən sferalarda təmin edilsə də, elektron qaydada təmin edilməsi sahəsində ciddi problem mövcuddur. İnternet resurslarında Azərbaycan dilinin işləkliyi, demək olar ki, çox zəifdir. Biz bunu daha çox tərcümə proqramlarının yarıtmaz vəziyyətdə olmasında müşahidə edirik.**

İstənilən dildən Azərbaycan dilinə hansısa bir mətni tərcümə etmək mümkünsüzdür. Eləcə də Azərbaycan dilindən mətnləri xarici dillərə çevirməkdə ciddi qüsurlar mövcuddur.

Bu da ondan irəli gəlir ki, Azərbaycan dili internet resurslarında oturmayıb. Bu sistemin yoxluğu, yaxud zəifliyi bir sıra ciddi çətinliklərin meydana gəlməsinə səbəb olur. Dilimizin internet, daha dəqiq desək, elektron bazasının formalaşdırılmaması nəticəsində biz onun imkanlarını tam olaraq göstərə bilmirik.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın bəndlərindən biri Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun inkişafı, qorunması, elektron məkanda daha geniş istifadəsi və ölkədə dilçiliyin inkişaf etdirilməsi mexanizminin yaradılması ilə bağlıdır. Lakin indiyə qədər bu məsələ öz həllini tapmayıb. Nə əlaqədar rəsmi qurumlar, nə də AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu tərəfindən bu istiqamətdə addımlar atılıb.

Dilimizin başqa dillərlə rəqabətə davam gətirməsi üçün Azərbaycan dilinin elektron bazasının formalaşdırılması zəruridir. Qeyd etdiyimiz kimi, buna qanunvericilik səviyyəsində şərait yaradılsa da, konkret olaraq mexanizm olsa da, işin icrası ləngiyir. Bunun müqabilində də biz çox şey itiririk. İngilis dilində olan bir mətni rusdillilər asanlıqla rus dilinə çevirib ondan istifadə edirlər, biz isə bunu edə bilmirik.

Azərbaycan Dövlət Pedoqoji Universitetinin kafedra müdiri, tanınmış dilçi-alim, professor Buludxan Xəlilov "Bakı-Xəbər"ə sözügedən sahədə problemin mövcudluğunu, onun aradan qaldırılmadığını təəssüflə qarşıladığını bildirdi. "Bu sahədə təəssüf ki, ciddi problem mövcuddur. Bu da onunla bağlıdır ki, Azərbaycan dili proqramı tam olaraq sistemdə oturdulmalıdır. Azərbaycan dili proqramı internet resurslarına oturmalıdır. Beynəlxalq dillərə nəzər salsaq görərik ki, bir dilə aid material o biri dilə asanlıqla tərcümə edilir. Bu da ondan irəli gəlir ki, həmin dillər internet resurslarında proqramlaşdırılıb. Ancaq Azərbaycan dili proqramlaşdırılmayıb. Ona görə də Azərbaycan dilində olan mətnlərin başqa dillərə çevrilməsində, eləcə də başqa dillərdəki mətnlərin Azərbaycan dilinə tərcümə edilməsində ciddi problemlər yaranır. Azərbaycan dilinin işləkliyinin təmin edilməsi ilə bağlı proqram yoxdur. Bu proqramı yaratmaq lazımdır. Fikrimcə, bu istiqamətdə xüsusi bir proqram, layihə hazırlanmalıdır ki, internet resurslarında Azərbaycan dili otura bilsin. Bu sahədə dünya təcrübəsi var. Uzun illərdir biz bu cür söhbətləri eşidirik, hətta bununla bağlı iradlar da bildirilir. Bəzən çoxları Azərbaycan dilinin işləkliyinin təmin edilməsi ilə bağlı internet resurslarının olmamasına görə dilçiləri ittiham edirlər. Bir qisim insana elə gəlir ki, bu iş Dilçilik İnstitutu, yaxud dilçilər həyata keçirməlidirlər. Əslində isə belə deyil. Azərbaycan dili proqramının yaradılması, internetdə yerləşdirilməsi, Azərbaycan dilindən başqa dillərə, başqa dillərdən də Azərbaycan dilinə tərcümələrin həyata keçirilməsi dilçilərin problemi deyil. Bu, birbaşa aidiyyəti qurumların işidir ki, bunu onlar həyata keçirməlidirlər" - deyə B.Xəlilov qeyd etdi.






**"Bu proqramın olmamasının nəticəsidir ki, dilimizin başqa dillərlə rəqabət prosesinə qoşulması ləngiyir, dilimizin imkanları üzə çıxa bilmir"**

B.Xəlilovun sözlərinə görə, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bu işlə məşğul olmalıdır. Onun fikrincə, sözügedən nazirlik dilçilərin də iştirakı təmin olunmaqla xüsusi proqram işləyib hazırlamalıdır. "Bu nazirlik öz mütəxəssislərini bu sahəyə yönəltməlidir və Azərbaycan dili proqramını hazırlayıb internet resurslarında oturtmalıdır. Bu proqramın olmaması bizim bir sıra sahələrdə geridə qalmağımıza səbəb olur. Bu proqramın olmamasının nəticəsidir ki, dilimizin başqa dillərlə rəqabət prosesinə qoşulması ləngiyir, dilimizin imkanları üzə çıxa bilmir. Bu gün dil ancaq yazı-pozu, kitab üzərində qorunmur, təbliğ edilmir, internet resursları üzərində də inkişaf edir. Hazırda internet resursları daha aktivdir. Biz bu prosesə qoşulmadıqca geridə qalırıq. Biz bu sahədə çox geridəyik və bunu qeyd edənlər çoxdur. Hətta mən bir dəfə tələbələrimi internet resurslarında bu sahədə iş görmələri üçün topladım, amma gördüm ki, işi həyata keçirmək tələbə işi deyil. Açığı, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bu prosesin həyata keçirilməsi işinə başlamalıdır, eyni zamanda da bu işə dilçiləri də cəlb etməlidir ki, dillə bağlı problem çıxanda onların köməyindən istifadə etsin. Ancaq təəssüflər olsun ki, bu sahədə heç bir iş görülmür. Bilirsiniz ki, Prezident tərəfindən imzalanan "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nda maddələrdən biri internet resurslarına Azərbaycan dilinin tətbiqi məsələsidir. Dilimizi internet resurslarında tətbiq etməklə Azərbaycan dilinin müasir imkanlarından istifadə etmək əsas işdir. Bu işə nazirlik kompyuter mütəxəssislərini, proqramçıları cəlb etməlidir ki, bu sahədə bir sistem yaradılsın. Bununla bağlı bir komissiya da yaradıla bilər. Bu iş kompleks yanaşma tələb edir".

**"Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bu prosesin həyata keçirilməsi işinə başlamalıdır"**

B.Xəlilovun bildirdiyinə görə, bu proqram hazırlandıqdan sonra onun təqdimatı olmalıdır. Professor Xəlilovun sözlərinə görə, proqram hazır olduqdan sonra o müxtəlif sahələrə tətbiq edilməklə onun sınağı keçirilməlidir. Eksperiment yolu ilə tətbiq edildikdən sonra bu sistem bir qədər də təkmilləşdirilməlidir. "Bu prorqam müasir tələblərə uyğun şəkildə hazırlanmalıdır. Bu proqramda şrift, qrafika məsələləri də var. Bunu dilçilərdən öyrənə bilərlər.

Ümumiyyətlə, bu məsələ ciddi müzakirə edilməlidir. Ancaq təəssüflər olsun ki, bu istiqamətdə bir dəfə də olsun müzakirə olmayıb. Ən azından, bu məsələ Prezident sərəncamında yer alıb. Bu mövzuda ciddi müzakirələr açılmalı, fikir mübadiləsi aparılmalıdır" - deyə alim bildirdi.

***İradə SARIYEVA***

# Vergilər Nazirliyi "Binə" və "Sədərək" bazarlarında vergidən külli miqdarda yayınmaları aktuallaşdırdı

**Məlum olduğu kimi, Vergi Məcəlləsinə uçotun bərpası, gəlirlərin leqallaşdırılması, vergi güzəştlərindən istifadə ilə bağlı çoxlu sayda dəyişiklik edilib. Bu dəyişikliklərin əksəriyyəti, ilk növbədə, vergi ödəyicisində uçotun bərpası məsələlərinə həsr olunub. Eyni zamanda, Məcəllədə vergi ödəyicisinin mənafeyinə xidmət edən güzəştlər və azadolmalarla bağlı yeniliklər mövcuddur.**



## *Rəşad Həsənov: ”Binə” və ”Sədərək” ticarət mərkəzlərində çalışan sahibkarlar vergi ödəyicisi kimi fəaliyyət göstərmirlər”*

Lakin təəssüf ki, sahibkarların bir çoxunun bundan xəbəri yoxdur. Çünki bəzi sahibkarlar uçot-hesabat məsələlərinə ciddi yanaşmır, mühasiblərlə işləməyə çox da önəm vermir, az məbləğlərdə vergidən yayınmanı "qənimət" hesab edib, böyük güzəştlərdən məhrum olurlar.

Bəzi müəssisələrin uçot işləri qaydasında olmadığına görə onlar verilmiş güzəştləri də axıra qədər tətbiq edə, hüquqlarından tam şəkildə yararlana bilmirlər. Nəticədə həmin şirkətlərin istehsal etdikləri məhsulun və ya göstərdikləri xidmətin maya dəyəri arzu edilməyən şəkildə artır.

Ekspertlər qeyd edirlər ki, ən çox vergidən yayınma halı "Binə" və "Sədərək" ticarət mərkəzlərində qeydə alınır. Adıçəkilən ticarət mərkəzlərində çalışan sahibkarlar vergidən yayınırlar. Vergidən yayınmanın qarşısını almaq üçün Vergilər Nazirliyi tədbirlər görəcək. Bu barədə jurnalistlərə açıqlamasında Vergilər Nazirliyinin İqtisadi təhlil və ekspertiza departamentinin baş direktoru Natiq Şirinov bildirib. Onun sözlərinə görə, bu obyektlərdə mallar sənədsiz satılıb ki, bu da dövriyyələrin şəffaflaşmasına ciddi əngəllər yaradıb: "Prezident İlham Əliyev idxal-ixrac sahəsində şəffaflaşmanın təmin olunması ilə bağlı sərəncam imzalayıb. Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Maliyyə və İqtisadiyyat nazirlikləri tərəfindən də müvafiq addımlar atılıb. Hazırda karqo şirkətləri sırf daşımaçılıqla məşğuldurlar. Ölkəyə idxal olunan mal və məhsullar faktiki sahibkarın adına rəsmiləşdirilir. Bu da ölkə boyu dəyər zəncirinin qorunmasında olan əngəllərin aradan qaldırılmasına imkan verir. Yəni mallar karqo şirkətləri tərəfindən idxal olunur. Onlar daşımaçılıqdan öz mənfəətini əldə edirlər. Həmin mallar, faktiki, sahibkarların öz adına rəsmiləşdirildiyinə görə növbəti mərhələlərdə dövriyyələrin şəffaflaşması həyata keçirilir. 2019-cu ilin ilk 5 ayında həm dövriyyələrin şəffaflaşması, həm də elektron qaimələrlə rəsmiləşməsinin artırılması hesabına daxilolmalarda ciddi artımlar olub".

## *”...hər bir azərbaycanlı kimi vergi ödəməlidirlər”*

**İqtisadçı-ekspert Rəşad Həsənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bazar şəraitində fəaliyyətində ticarət mərkəzlərinə ümumi yanaşma tətbiq olunur:** "Bu müəssisələrdə çalışan sahibkarlar vergi ödəyicisi kimi fəaliyyət göstərmirlər. Sadəcə, icarəçi olaraq icarədarın müəyyən etdiyi ödənişləri vermək şərtilə onun himayəsi altında fəaliyyət göstərirlər. Bu hal əksər bazarlarda yaşanır. Bu yaxınlarda "Diglas" ticarət mərkəzi yananda sahibkarların vergi ödəyicisi olmaması açıq şəkildə hər kəsə bəlli oldu. Eyni hal bir müddət öncə Sumqayıt bazarı yanan zaman yaşandı. Bazarlarda ticarət dövriyyəsinin leqallaşdırılması istiqamətində ciddi tədbir görülmür. Burada da himayədarlıq əsas maneələrdən biri idi. Hansısa formada qeyri-rəsmi sövdələşmələr olurdu. Belə olan bazarların fəaliyyətinə göz yumulurdu".

Həmsöhbətimiz onu da vurğuladı ki, bazarlarda çalışan sahibkarlar vergi ödəyicisi kimi qeydiyyatdan keçməyiblər. O cümlədən, həmin ticarət mərkəzlərində POS-terminal belə yoxdur: "Nəzərə almaq lazımdır ki, "Binə" və "Sədərək" miqyasına görə böyük ticarət məkanıdır. Qeyd olunan ticarət mərkəzlərində çalışan sahibkarlar hər bir azərbaycanlı kimi vergi ödəməlidirlər. Onların xərcləri artsa belə, öz hüquqlarını təmin etmiş olacaqlar. "Diglas" ticarət mərkəzində çalışan sahibkarlar nə vergi, nə sığorta ödənişi edirdilər. Xoşagəlməz hadisə baş verən zaman həmin sahibkarlar risqlə üz-üzə qalıb öz fəaliyyətlərini tamamilə dayandırırdılar".

***Günel CƏLİLOVA***

# Banklar kredit faizlərini salmamaq üçün tutarsız arqument tapıblar - əmanət faizləri...

**Son günlər banklarda kredit faizlərinin yüksək, depozit və kredit faizləri arasındakı fərqin böyük olması ilə bağlı müzakirə və mübahisələr yenidən geniş vüsət alıb. Tez-tez dövlət rəsmilərinin, iqtisadçıların və müştərilərin kredit faizlərinin aşağı salınması barədə çağırışlarını eşidirik.**




## *Aydın Hüseynov: ”Kredit faizlərinin yüksək olmasının səbəbini ancaq depozit faizləri ilə əlaqələndirmək doğru yanaşma deyil”*

Qeyd olunur ki, 12 faizlə əmanət cəlb edib, 24 faizlə kredit ayıran banklar yüksək qazanc götürürlər. Arada çox böyük fərq var. Bununla bağlı bir sıra çağırışlara rəğmən, banklar kredit faizlərini aşağı salmaq istəmirlər.

Bu arda, "AccessBank" QSC-nin İdarə Heyətinin sədri Anar Həsənov mətbuata açıqlamasında bildirib ki, kredit faizinə bankın sırf gəliri kimi baxılmamalıdır: "Kredit faizinin içərisində pulun maya dəyəri (cəlb edilməsinə ödənilən faiz), risq faktoru, əməliyyat xərcləri var. Risq faktoru və əməliyyat xərcləri o qədər də böyük pay təşkil etmir. Kredit faizində əsas pay pulun maya dəyərinə düşür. Azərbaycanda banklar kreditləri daha çox əhalidən cəlb etdikləri əmanətlər hesabına verirlər. Burada pulun maya dəyəri əmanətçilərə ödənilən faizdir. "AccessBank"da əmanətlər üzrə orta faiz dərəcəsi 10%-dir. Hətta bəzi banklar 13%-lə əmanət qəbul edirlər. Xərcləri də nəzərə alsaq, 13%-lə cəlb edilən pulu bank daha yüksək faizlə satmalıdır ki, qazanc götürsün. Kredit faizlərinin düşməsi üçün ilk növbədə əmanət faizləri düşməlidir".

O iddia edir ki, əmanətçi bir ilin sonunda pulunun 12%-i qədər qazansa da, bank kreditin 24%-i qədər qazanmır. Müştəri kredit borcunu azalan qrafiklə qaytardığından, bankın gəliri daha aşağı olur və s.

Bu arqumentlərlə nəinki adıçəkilən bank, digər banklar da çıxış edirlər. O baxımdan kredit faizlərinin yüksək olması ilə bağlı səslənən bu arqumentlər nə dərəcədə əsaslıdır?

**Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, kredit faizlərinin bu qədər yüksək olmasını depozit faizləri ilə əlaqələndirmək doğru yanaşma deyil:** "Depoziti 12 faizlə qəbul edib, krediti 24 faizlə vermək düzgün deyil. Kredit faizinin yüksək olmasını onun maya dəyəri ilə əlaqələndirmək doğru deyil. Bu o demək deyil ki, bütün xərclər kredit götürən tərəfin üzərinə yüklənməlidir. Məsələ ondadır ki, banklar da öz xərclərini tənzimləməli və eyni zamanda optimallaşdırmalıdırlar. Yəni hansı xərclərə getmək olar, hansı xərclərə getmək olmaz. Banklar bahalı avtomobillər almaq, özləri üçün komfortlu iş şəraiti yaratmaq fikrində olacaqlarsa, əlbəttə ki, buna vəsait çatmayacaq. Belə olduqda, bank kredit faizlərini artırmalıdır ki, rentabelli olsun. Ancaq banklar istəsə, lazımsız xərcləri azalda bilərlər və o üzdən, xərclərini optimallaşdırmalıdırlar. Bütün bunların kompleks şəkildə həyata keçirilməsi sayəsində kredit faizlərini aşağı salmaq mümkündür. Təki banklar bunda maraqlı olsunlar. Ona görə də kredit faizlərinin yüksək olmasının səbəbini ancaq depozit faizləri ilə əlaqələndirmək doğru yanaşma deyil. Bütövlükdə götürdükdə isə depozitlərin 12 faizlə qəbul edilməsi məqsədəuyğun deyil. Ona görə ki, 12 faizin özü böyük rəqəmdir. Çünki ölkədə inflyasiyanın səviyyəsi var. Hazırkı rəqəm inflyasiyanın səviyyəsinə uyğun deyil. Görünən odur ki, əmanətləri yüksək faizlə cəlb edib, kreditləri daha yüksək faizlə təklif edirlər.

## *”Banklar bahalı avtomobillər almaq, özləri üçün komfortlu iş şəraiti yaratmaq fikrində olacaqlarsa, əlbəttə ki, buna vəsait çatmayacaq”*

Hesab edirəm ki, bütün bunların hamısı sistemləşdirilməli və kredit faizləri aşağı salınmalıdır. Bir iş adamı kredit götürərkən nə qədər gəlir əldə edə biləcəyi ilə bağlı bank tədqiqat aparmalıdır. Buna müvafiq olaraq kredit faizləri artırılmalıdır. Yoxsa necə gəldi yüksək faizlə kredit vermək düzgün deyil".

***Vidadi ORDAHALLI***

№ 106 (4004) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

19 İYUN 2019-cu il

www.baki-xeber.com

# Xərçəng hüceyrələrini məhv edən lazer...



**Arkanzas Universitetinin alimləri qan damarlarında hərəkət edən xərçəng hüceyrələrini məhv edə bilən lazer texnologiyasını uğurla sınaqdan keçiriblər.**

"ICTnews" bildirir ki, sözügedən texnologiya şiş xəstəliklərinin təkrar yaranmasının qarşısını almağa imkan verir.

Alimlərin sözlərinə görə, onlar bu metodun köməyi ilə şiş hüceyrələrinin 96%-ni məhv etməyə nail olublar. Yeni qurğu, həmçinin 1 litr qanı 1 saat ərzində təhlil edir ki, bu göstərici analoqlardan çox sürətlidir.

## Elan

Nağıyeva Lyubov Petrovnaya məxsus, Binəqədi rayonu, Rəsulzadə qəsəbəsi, Cəfər Cabbarlı küçəsində yerləşən torpağın şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Mirzəyev Fərid Məmmədxan oğlunun adına, Abşeron rayonu, Məhəmmədli kəndində yerləşən torpaq sahəsinə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Həsənov Rəcəb Həsən oğluna məxsus, Bakı şəhəri, Qaradağ rayonu, Ələt qəsəbəsi, Şıxlar bağlar massivində yerləşən 17/7 №li torpağın çıxarışı itdiyi üçün etibarsız sayılır.

Nəsibov Elçin Nadir oğluna məxsus Merkuri - 130 F-01 kassa aparatının pasportu itdiyi üçün etibarsız sayılır ( AZE № 16509084, Sabunçu RPİ).

Abuşov Səyyad Xanhüseyn oğlunun adına, Yasamal Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əliyev İlham Əziz oğluna məxsus, (VÖEN 7001119672) 29.06.2017-ci il tarixli, İN/L-589/2017, İN/L-589/2017/1 nömrəli lisenziya və onun əlavəsinin əsli itdiyi üçün etibarsız sayılır.

Əliyeva Möhtərəmə Vaqif qızına məxsus, Abşeron rayonu, Novxanı kəndində yerləşən yaşayış sahəsinə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Təhməzli Əli Elşən oğlunun adına, Sumqayıt şəhəri, Novxanı massivi 130 E ünvanına məxsus çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Dadaşeva Lalə Ağa Əli qızının adına, Bakı şəhəri, Xəzər rayonu, N.Abbasov küçəsi, ev 1 ünvanının çıxarışı (qeydiyyat vəsiqəsi) itdiyi üçün etibarsız sayılır.

Rüstəmov Ruzbeh Nadir oğlunun adına, Bakı şəhəri, Xətai rayonu, Neapol küçəsi, ev 15, mənzil 35 ünvanının çıxarışı (qeydiyyat vəsiqəsi, seriya ÖM № 185020) itdiyi üçün etibarsız sayılır.

Əliyarzadə Tunar İlqar oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynzadə Ülvi Aqil oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Azercell"in 4G istifadəçilərinin sayı 3 dəfə artıb

*Şirkət yeni nəsil texnologiyaların tətbiqinə hazırdır*

**Məqsədi abunəçiləri üçün həyatı asanlaşdırmaq və rəqəmsallaşdırmaq olan "Azercell" şirkəti ölkənin telekommunikasiya sektorunda 49% payla lider mobil operator mövqeyində qərarlaşıb.**

"Azercell" ölkədə telekommunikasiyanın inkişafına ötən il 59,5 milyon ABŞ dolları, fəaliyyət göstərdiyi 22 il ərzində isə 1 milyard 527 milyon ABŞ dollarından artıq sərmayə yatırıb. Şirkət 2018-ci ildə insan qaynaqlarının inkişafına 880 000 ABŞ dollarına yaxın, sosial layihələrə isə 266 000 ABŞ dollarından çox vəsait xərcləyib.

İl ərzində şirkətin yeni sərmayələri nəticəsində 4G istifadəçilərinin sayı 3 dəfə artıb. 4G şəbəkəsinin coğrafi ərazi əhatə dairəsində 61.4%, əhali əhatə dairəsində isə 86.2% artım qeydə alınıb. Günlük 4G internet istifadəsində müşahidə olunan artım 49.6% təşkil edib.

4G üzərindən sürətli mobil internetdən faydalana biləcək insanların sayının artması üçün şirkət il boyu müştərilərə yeni və əlverişli telefon kampaniyaları təqdim edib. Nəticədə "Azercell" müştərilərinin 60%-dən çoxu smartfon istifadəçisinə çevrilib.

"Azercell"in ötən ildə ümumi mobil internet trafiki 55%, LTE mobil trafiki isə 199% artıb.

Hazırda regionlarda şəbəkənin genişləndirilməsi üzərində fəal iş gedir, mart ayında rayon mərkəzlərində 4G şəbəkəsi təmin edilib. Bu müddət ərzində, ümumilikdə, 770 4G stansiyası quraşdırılıb.

4G şəbəkəsinin genişləndirilməsi şirkətin bu gün üçün prioritet fəaliyyət istiqamətlərindən biri olaraq qalır. Bu planın 2019-cu ilin III rübündə tamamən yerinə yetirilməsi nəzərdə tutulub.

Ölkədaxili şəbəkənin genişləndirilməsi ilə yanaşı, "Azercell" ötən il ərzində rominq üzrə 19 yeni ölkə ilə saziş bağlayıb. Eyni zamanda, lider operator abunəçilərinə 50 ölkədə fəaliyyət göstərən 80 operatorun şəbəkəsində istifadəni nəzərdə tutan xüsusi internet paketləri təqdim edib.

Şirkət, həmçinin, Bakı metropolitenində mobil rabitənin keyfiyyətinin artırılması istiqamətində müvafiq tədbirlər görür. Birinci mərhələdə bu il daha yüksək sıxlıq müşahidə edilən stansiyalar 4G şəbəkəsi ilə əhatə ediləcək. Gələn il isə rabitə yalnız platformalarda deyil, tunellərdə də daha sürətli olacaq.

Bununla yanaşı, gələcəyin texnologiyası olan 5G şəbəkəsinin qurulması üzrə də fəal danışıqlar gedir, texniki avadanlığın xüsusiyyətləri müəyyən edilir. Ən yaxşı modeli seçdikdən sonra şirkət pilot layihənin həyata keçirməyə başlayacaq.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Ciddi və dərin hisslər, gərginliklər, problemlər istisna deyil. Hətta, emosional şok da ola bilər. Halbuki, situasiya soyuqqanlılıq və düşünülmüş həllər tələb edir. Təmkinli olun, problemləri həll etməyə çalışın.



**Buğa** - Günün ilk yarısında yarana biləcək qəfil hadisələrə tam hazır olun. Çətin, birmənalı olmayan situasiyaların öhdəsindən gəlmək üçün problemlərin çözümündə kreativ davranın.



**Əkizlər** - Hədəflərlə məqsədləri təftiş edin. Onların arasında ən gərəklisini, əlçatanını seçərək məqsədə doğru qətiyyətlə irəliləyin. Saatlar keçdikcə emosional fon daha gərgin olacaq.



**Xərçəng** - Yetərincə laübəli, narahat gündür. Başqalarının problemlərinin həllində aktiv iştirak edərək öz işlərinizi unutmayın. Mübahisədə vasitəçilik etmək olar. Amma hakimlik fikrinə düşməyin.



**Şir** - Günün ilk yarısından etibarən intensiv işləyin. Tənbəllik etməyin. Bir qədər əvvəl başladığınız işi bitirin. Yarımçıq işlərin sayını artırmayın. İstənilən layihənin əvvəli təki, məntiqi sonluğu da olmalıdır.



**Qız** - Bu gün təmas və ünsiyyətlər nə qədər çox olarsa, gün o qədər uğurlu keçəcək. İnsanaların gur olduğu yerdə vaxt keçirmək, diqqət cəlb etmək, bildiklərinizi bölüşmək və başqalarının problemlərini müzakirə etmək istəyəcəksiniz.



**Tərəzi** - Məqsədlərinizi reallaşdırmaq üçün var qüvvənizlə çalışın. Qarşınıza qoyduğunuz hədəfi nə qədər tez "vursanız", bir o qədər yaxşıdır. İmkan olan kimi fəal işləyin. Yorulsanız, dincəlin. İfrat yorğunluqda fəsadlar yoxdur.



**Əqrəb** - Təhlükəsizlik qaydalarına riayət edin. Ehtiyatlı, təmkinli olun. Soyuqqanlı insan təsiri bağışlamağınız gərəkdir. Yaxşı tanımadığınız insanlarla münasibətlərdə emosiyalara uymayın.



**Oxatan** - Ətrafda nələrin baş verməsindən asılı olmayaraq, təmkinli və səbrli olun. Başqalarının, daha emosional və təmkinsiz insanların qarşılaşdıqları insanların problemlərini bu minvalla dəf edə bilərsiniz.



**Oğlaq** - Sakit, ahəstə işin çətinləşdiyi bir zamandır. Analitika ilə bağlı fəaliyyət üçün əlverişli vaxt deyil. İşiniz uzaq məsafələrdə reversiv hərəkətlə bağlıdırsa, sərvaxt olun. Günün ikinci yarısında problemlərin həllində tələskənliyə yol verməyin.



**Dolça** - Aktiv, enerjili olun. Qeyri-fəallıq və süstlük əleyhinizədir. Dəyişən şərtələrə, situasiyadakı fərqli məqamlara alışmağa çalışın. Yaranmış imkanlardan bəhrələnin. Adi problemlər trivial olmayan həllər tələb edir.



**Balıqlar** - Günün ilk yarısından etibarən problemlərin sayı artacaq. Yaxınlarınız diqqət, problemlər isə aktiv həllini tələb edir. Texnikanın qəflətən sıradan çıxması, yolda tıxaclar, vəd etdiyiniz görüşə gecikməyiniz istisna deyil.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Yeni alqoritm robotlara insanların hərəkət istiqamətini tapmağa kömək edəcək

**Massaçusets Texnologiya İnstitutunun (MTİ) mühəndisləri tərəfindən işlənib hazırlanmış alqoritm robotlara insanın hərəkət istiqamətini öncədən bilməyə imkan verəcək.**

Bu xüsusiyyət gələcəkdə robot və insanların birgə işini asanlaşdıracaq. "ICTnews" bildirir ki, MTİ-nin alimləri tərəfindən hazırlanmış alqoritm hərəkətin trayektoriyasını müəyyənləşdirən adi sistemlər kimi insan bədənindəki nöqtələrin məsafəsinə əsaslanmır, o, insan tərəfindən qət edilmiş yolun seqmentlərini etalon hərəkət dəsti ilə müqayisə edir. Söhbət düz, bu və ya digər tərəfə dönmək və ya dayanmaq niyyətini göstərən əl və ayaq hərəkətlərindən gedir. Mühəndislər alqoritmin sınaqdan keçirilməsi zamanı aydınlaşdırıblar ki, yeni sistemdən istifadə edən robotlar yaxınlıqdan insan keçdikdə, iş yerinə daha tez qayıdırlar.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.